## Azərbaycan tərəfindən qaytarılan 6 hərbçi Ermənistanda həbs edilib



**Azərbaycan tərəfindən Ermənistana qaytarılan 6 hərbçi barəsində cinayət işi başlanıb.**

Trend-in məlumatına görə, bu barədə erməni KİV-ləri Ermənistan İstintaq Komitəsinin Baş Hərbi İstintaq İdarəsinə istinadən xəbər verirlər.

*Məlumata əsasən, hərbçilərdən üçü zabitdir və onlar həbs edilib.*

## “Növbəti pandemiyaya hazırlaşmalıyıq”

BMT-nin Baş katibi koronavirus pandemiyası ilə ədalətli və bərabər əsaslarla mübarizə aparmağa çağırıb



**BMT-nin Baş katibi Antonio Quterreş Dünya İqtisadi Forumunda çıxışı zamanı növbəti pandemiyaya hazırlaşmağa çağırıb.**

Bu barədə "Report" RİA "Novosti"yə istinadən xəbər verir.

(səh.2)



## Azərbaycandan qeyri-adi jest

Sərhəddimizi pozan İranın üç azyaşlı vətəndaşı isti yemək və digər lazımi şəraitlə təmin ediliblər

**Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.**

DSX Mətbuat Mərkəzindən verilən məlumata görə, yanvar ayının 17-də saat 15:25 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Göytəpə sərhəd dəstəsinin Biləsuvar rayonunun Amankənd kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 3 nəfər şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulması müşahidə edilib və sərhəd pozucuları sərhəd naryadı tərəfindən saxlanılıblar.

(səh.2)


№ 9 (5531), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 18 yanvar 2022-ci il (çərşənbə axşamı)




## Prezident məhkəmə hakimləri ilə bağlı qanuna dəyişikliyi təsdiqləyib

**Prezident İlham Əliyev "Məhkəmələr və hakimlər haqqında" qanuna dəyişiklik edilməsi barədə qanunu təsdiqləyib.**

Dəyişikliklə yüksək hakim vəzifələrinə təyin edilmiş hakimlərin hüquqşünas ixtisası üzrə dövlət orqanlarında (qurumlarında) iş stajı, habelə hüquq sahəsində elmi və pedaqoji fəaliyyət müddəti onların hakimlik stajına hesablanacaq.

# Ermənistana 6 ay vaxt verilib

Bakı yaz aylarında sərhədin demarkasiyasına start verilməsini planlaşdırır



**“Prezident İlham Əliyevin müsahibəsi son geosiyasi proseslər, sərhəd döyüşləri fonunda, həm də müəyyən mesajların yenilənməsi baxımından əhəmiyyətlidir”.**

Bu barədə ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, Prezidentin iqtisadi məsələlərdən danışarkən, epizodik toxunduğu iki məsələ müəyyən nəticələr çıxarmağa imkan verir: ”Birincisi, Azərbaycan-Ermənistan dövlət sərhədinin praktiki olaraq bərpa edilməsidir. Sərhədin Zəngilandan Laçına qədər olan hissəsinin bərpa edildiyi, əsas problemin davamlı toqquşmaların yaşandığı Kəlbəcər istiqamətində olduğu haqda məlumatlar var idi. Hərçənd, dövlət başçısı bildirdi ki, ”biz bu sərhədlərə çıxmalıydıq, bu sərhədi qorumalıydıq və bu gün buna nail olmuşuq - sərhədboyu Arazdan Murov dağına qədər”. Bu o deməkdir ki, cənubdan şimala qədər bütün istiqamətlərdə Ermənistanın işğal dövründə irəli çəkdiyi sərhəd xətti bərpa edilib.

(səh.4)

## 20 Yanvar faciəsinin ildönümü ilə bağlı hazırlıqlara başlanılıb



**“Şəhidlər Xiyabanı”nda 20 Yanvar faciəsinin ildönümü ilə bağlı hazırlıq işləri aparılır.**

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) mətbuat xidmətindən verilən məlumata görə, 20 Yanvar faciəsinin ildönümü ilə bağlı BŞİH-in qurumları tərəfindən Şəhidlər Xiyabanında cari təmir, geniş təmizlik və abadlıq işləri görülür, ağacların budaqları, bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənib, səkilər və bütün ərazi yuyulub, Xiyabandakı hər iki məşələ profilaktika aparılıb.

Xiyaban ərazisində faciənin ildönümü ilə əlaqədar müxtəlif rəngli gərənfillərdən xüsusi kompozisiyalar hazırlanır.

Bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.

Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.



## Ərdoğan: Türkiyə Balkanlarda sülhü təmin edən ölkələrdən biridir

**”Balkanlarda sülh və əmin-amanlıq bizim üçün çox önəmlidir”.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Albaniyaya səfəri zamanı deyib.

O, qeyd edib ki, yarımadadakı sabitliyin təminatı üçün ölkəsi bundan sonra da üzərinə düşən öhdəliklərə sadiq qalacaq. Ərdoğan əlavə edib ki, Türkiyə Balkanlarda sülh və əmin-amanlığı təmin edən ölkələrdən biridir.

# Müntəzəm avtobus marşrutları açılır

İndi xeyli insan Şuşanı canlı olaraq görə biləcək

**Yanvarın 24-dən etibarən Şuşa və Ağdama ilk müntəzəm avtobus marşrutlarının açılması gözlənilir. Nəzərdə tutulan marşrut xətləri Bakı - Şuşa - Bakı, Əhmədbəyli - Şuşa - Əhmədbəyli, Bakı - Ağdam - Bakı və Bərdə - Ağdam - Bərdədir.**

Məlumata görə, biletlərin satışının onlayn qaydada həyata keçirilməsi nəzərdə tutulub. Onlayn sistem sərnişindaşımada sistemliliyin, növbəliliyin təmin edilməsi, kvotalara ciddi riayət edilməsi, müvafiq məlumat bazasının formalaşdırılması məqsədilə tətbiq ediləcək.

(səh.3)




## Nizami rayonunda yaşayış binaları sökülür

Həmin binalardan artıq sakinlərin köçürülməsinə başlanılıb



**Bakının Nizami rayonunda bəzi yaşayış binalarının sökülməsinə başlanılıb.**

Trend-in əldə etdiyi məlumata görə, bunlar Bakı şəhəri, Nizami rayonu, Rüstəm Rüstəmov küçəsi 88-98 ünvanında yerləşən binalardır. Həmin binalardan artıq sakinlərin köçürülməsinə başlanılıb.

*Qeyd edək ki, söküntü aparılan ərazidə yerləşən binalar ötən əsrin 40-60-cı illərdə inşa olunmuş "Minsk" və "Xruşovka" layihəli beş mərtəbəli binalardır.*

## Daha 359 nəfər koronavirusa yoluxub

8 nəfər ölüb, 263 nəfər müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 16.01.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 625 726 | Yeni yoluxanların sayı | 808 |
| Ümumi sağalanların sayı | 608 514 | Yeni sağalanların sayı | 369 |
| Aktiv xəstə sayı | 8 691 | Bugünkü test sayı | 9 340 |
| Ümumi test sayı | 6 006 500 | Bugünkü ölüm sayı | 11 |
| Ümumi ölüm sayı | 8 521 | | |

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 359 yeni yoluxma faktı qeydə alınıb, 263 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 626 085 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 608 777 nəfər müalicə olunaraq sağalıb, 8 529 nəfər vəfat edib, aktiv xəstə sayı 8 779 nəfərdir.



## "Şahlar Əsgərov repetitorluqla bağlı problemi vaxtında qaldırmalı idi"

Elçin Əfəndi: "O, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri olduğu dövr ərzində bu məsələni niyə işıqlandırmırdı?"

(səh.6)

## Bahalaşmanın qarşısını almağın bircə yolu var

Natiq Cəfərli: "Bütün zəruri ərzaq məhsullarının gömrük rüsumlarını azaltmaq lazımdır"



(səh.4)

# Ölkələrimiz arasında fəal siyasi dialoq var

## Prezident İlham Əliyevlə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olub



**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olub.**

Prezident İlham Əliyev Azərbaycanla Monteneqro arasında dostluq münasibətlərinin olduğunu qeyd edərək, ölkələrimiz arasında, o cümlədən dövlət başçıları səviyyəsində mövcud yüksəksəviyyəli dialoqu vurğuladı, parlamentlərarası əlaqələrin inkişafından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, enerji, nəqliyyat sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı zəminin olduğunu qeyd etdi və bu baxımdan hökumətlərarası birgə komissiyanın fəaliyyətinin önəmini vurğuladı.

Monteneqro parlamentinin sədri Aleksa Beçiç də öz növbəsində ölkələrimiz arasında fəal siyasi dialoqun olduğunu məmnunluqla qeyd etdi.

Aleksa Beçiç Monteneqronun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Monteneqronun Azərbaycanın dostu olduğunu deyərək, ölkəmizin əldə etdiyi nailiyyətlər münasibətilə xalqımızı təbrik etdi. Monteneqro parlamentinin sədri ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək bu sahədə müvafiq sənədin imzalanmasının vacibliyini vurğuladı.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar, o cümlədən parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyi və maraq doğuran digər məsələlər müzakirə olundu.



**Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.**

DSX Mətbuat Mərkəzindən verilən məlumata görə, yanvar ayının 17-də saat 15:25 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Göytəpə sərhəd dəstəsinin Biləsuvar rayonunun Amankənd kəndi yaxınlığında yerləşən sərhəd

# Azərbaycandan qeyri-adi jest

## Sərhəddimizi pozan İranın üç azyaşlı vətəndaşı isti yemək və digər lazımi şəraitlə təmin ediliblər

zastavasının xidməti sahəsində 3 nəfər şəxs tərəfindən İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədinin pozulması müşahidə edilib və sərhəd pozucuları sərhəd naryadı tərəfindən saxlanılıbar.

Azyaşlı olmaları müəyyən edilən sərhəd pozucuları dövlət sərhədini səhvən pozmalarını bildirib və özlərini İran İslam Respublikasının vətəndaşları Ataşi Əmirzə Ataş (14 yaş), Puya Bədəli Mehrac (12 yaş) və Danayi Səhənd İbrahim (11 yaş) kimi təqdim ediblər. Saxlanılmış şəxslər sərhəd zastavasına gətirilib, isti yemək və digər lazımi şəraitlə təmin ediliblər.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mehriban qonşuluq və dostluq münasibətləri nəzərə alınaraq sərhəd nümayəndəliyi xətti ilə müqabil tərəf məlumatlandırılıb.

Qısa müddət ərzində azyaşlıların İİR tərəfinə təhvil verilmələri nəzərdə tutulub.

## "Şuşa İli" ilə bağlı Tədbirlər Planı hazırlanacaq

**"Şuşa İli" ilə bağlı Tədbirlər Planı hazırlanacaq.**

Bu, Baş nazir Əli Əsədovun "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli 3096 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə imzaladığı sərəncamda əksini tapıb.

Sərəncama əsasən, Mədəniyyət Nazirliyi Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Turizm Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, "Şuşa İli" ilə bağlı Tədbirlər Planına dair təkliflərini iyirmi gün müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

## "Növbəti pandemiyaya hazırlaşmalıyıq"

### BMT-nin Baş katibi koronavirus pandemiyası ilə ədalətli və bərabər əsaslarla mübarizə aparmağa çağırıb




**BMT-nin Baş katibi Antonio Quterreş Dünya İqtisadi Forumunda çıxışı zamanı növbəti pandemiyaya hazırlaşmağa çağırıb.**

"Biz hər bir ölkədə monitorinq, erkən aşkarlama və sürətli reaksiya planlarına sərmayə qoymaqla və Ümumdünya Səhiyyə Təşkilatının avtoritetini möhkəmləndirməklə növbəti pandemiyaya hazırlaşmalıyıq", - A. Quterreş videomüraciətində bildirib.

O, həmçinin mövcud koronavirus pandemiyası ilə ədalətli və bərabər əsaslarla mübarizə aparmağa çağırıb. A. Quterreş xatırladıb ki, ÜST daha əvvəl 2021-ci ilin sonuna qədər dünya əhalisinin 40%-ni, bu ilin ortasında isə 70%-ni peyvənd olunması ilə bağlı strategiyasını açıqlamışdı:

"Biz bu məqsədlərdən uzağıq. Bu utancvericidir, lakin yüksək gəlirli ölkələrdə peyvənd nisbətləri Afrika ölkələrindən yeddi dəfə yüksəkdir. Peyvəndlərin paylanmasında ədalətə ehtiyacımız var".

Baş katibin qeyd edib ki, bütün ölkələr və bütün istehsalçılar COVAX mexanizmi ilə peyvəndlərin tədarükünə üstünlük verməli və bütün dünyada yerli testlərin, peyvəndlərin və müalicə vasitələrinin istehsalını dəstəkləməlidirlər.

## "Təcavüzkar tərəf Rusiyadır"

### Yens Stoltenberq: "Ukraynadan hansısa addım gözləmək doğru olmaz"



**"Təcavüzkar tərəf Rusiyadır. Deməli, Ukraynadan təzyiqin aşağı salınması istiqamətində addım gözləmək doğru olmaz". "Report" "TRT Haber"ə istinadən xəbər verir ki, bunu NATO-nun Baş katibi Yens Stoltenberq deyib.**

"Şərqi Avropadakı böhranın diplomatik həlli üçün bundan sonra addım atmalı olan tərəf Rusiyadır. NATO Rusiyanın da qayğılarını da nəzərə alacaq. Amma vəziyyət sabitləşdirmək Rusiyadan asılıdır", - o bildirib.

Y.Stoltenberq həmçinin vurğulayıb ki, Rusiya Ukraynaya hücum etsə, siyasi və iqtisadi sanksiyalara məruz qalacaq.

*Qeyd edək ki, NATO-nun Baş katibi Kanadanın dövlət televiziyası olan "CBC News"a müsahibə verib.*

# 5 azyaşlı uşaq məişət zorakılığı ilə üzləşib

## Şamaxıda baxımsız qalan azyaşlılar sosial reabilitasiya müəssisəsinə yerləşdirilib



**Şamaxının İkinci Çaylı kəndində baxımsız vəziyyətdə yaşadıqları barədə məlumat yayılan 5 azyaşlı uşağın məişət zorakılığı ilə üzləşdiyi müəyyən edildiyindən onların**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün sığınacaq və sosial reabilitasiya müəssisəsinə yerləşdirilməsi qərara alınmışdı.

Agentlikdən verilən məlumata görə, artıq azyaşlılar Sosial Xidmətlər Agentliyinin müəssisəsinə gətiriliblər.

Bundan sonra onlar məişət zorakılığından zərərçəkənlərlə bağlı xüsusi şöbədə Agentliyin peşəkar mütəxəssislərinin iştirakı ilə reabilitasiya prosesi keçəcəklər. Prosesin davamında uşaqların reabilitasiyasının nəticəsinə uyğun olaraq onların rifahı üçün aidiyyatı tədbirlər görülməsi barədə qərar qəbul ediləcək.

**Ermənilər 1990-cı il qanlı 20 Yanvar hadisəsinin ildönümü ərəfəsində propaqanda maşınını yenidən işə salıblar. Ermənistan Xarici İşlər Nazirliyi uydurma iddialarla Azərbaycanı ittiham edib. İrəvan 20 yanvar hadisəsində minlərlə ermənin "qətl edildiyi", "təzyiqlərə məruz qaldıqları" və Bakıdan "sürgün edildikləri" kimi absurd iddialar irəli sürüb.**

Guya, rəsmi Bakı 20 Yanvar faciəsini məqsədyönlü şəkildə qabardaraq, erməni "qırğınlarını" ört-basdır etməyə

**Hərəkatı Partiyasının sədri, keçmiş millət vəkili Fərəc Quliyev bildirib ki, İrəvanın davranışlarına təəccüb etməməliyik.** Partiya rəhbəri bəyan edib ki, Ermənistan hələ düşmənimizdir və statusu dəyişməyib: "Dövlət başçısı İlham Əliyev müsahibəsində Ermənistanı qonşu ölkə adlandırmadı. Çünki



# 20 Yanvar qırğınında ermənilər də iştirak ediblər

## Fərəc Quliyev: "Onların adları da məlum idi"

çalışıb. Azərbaycan Xarici İşlər Nazirliyi düşmən tərəfin çirkin ittihamlarını cavabsız qoymayıb. XİN-in mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib ki, Bakıda 1990-cı ilin yanvarında erməni əhaliyə qarşı "qırğın törədilməsi" iddiası tamamilə əsassız və uydurmadır. XİN-dən vurğulanıb ki, bu, Ermənistan tərəfinin Azərbaycanın dinc əhalisinə qarşı tarixən həyata keçirdiyi soyqırımı, etnik təmizləmə siyasətini, Xocalı şəhərində bir gecədə 613 mülki şəxsi vəhşicəsinə qətlə yetirdiyini gizlətmək məqsədini güdən propaqandadır: "Təəssüflə qeyd etməliyik ki, ermənilərin "qurban" şəklində təqdim edildiyi hekayələr onilliklər ərzində erməni millətçiliyinin ideoloji əsasını təşkil edib. Elə bu da Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına təkan verib. Ermənistanla Azərbaycan arasında yüz minlərlə insanın böyük iztirablarına səbəb olan dağıdıcı münaqişəyə gətirib çıxarıb. Hazırda münaqişədən sonrakı dövlətlərarası münasibətlərin normallaşması məsələlərinin müzakirə mövzusu olduğu bir vaxtda Ermənistan XİN-in yenidən bu kimi əsassız və destruktiv bəyanatlarla çıxış etməsi qarşı tərəfin münasibətlərin normallaşmasına çalışmadığını göstərir. Bu isə təəssüf doğurduğu qədər həm də təhlükəlidir". L.Abdullayeva bəyan edib ki, istintaq materialları, eləcə də bir sıra beynəlxalq müstəqil qurumların təkzibedilməz müşahidələri sübut edir ki, 20 yanvar hadisəsi sovet xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, Azərbaycan xalqının müstəqillik mübarizəsinə qarşı yönəlmiş açıq təxribatçı əməllər idi.

**Ermənistan tərəfinin yalanları ilə bağlı "Şərq"ə danışan Milli Dirçəliş**

Ermənistan rəhbərliyi və ictimaiyyəti öz yanaşmalarında və davranışlarında redaktələr etməyiblər. Ermənistan Azərbaycan və Türkiyəyə qarşı ittihamlardan əl çəkərsə, normal əməkdaşlıq istiqamətində zəruri addımlar atarsa, o halda İrəvanı qonşu adlandırmaq mümkündür. Həlelik, Ermənistan tərəfi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərimizi tanımayıb. Ərazilərimizdəki ermənilərin Azərbaycan vətən-

### "Ozamankı proseslərdə ermənilər hər cür vəhşiliyə əl atmışdı"

daşları olduqlarını qəbul etməyiblər. Türkiyəyə qarşı iddialardan, saxta "soyqırım"dan əl çəkməyiblər. Ermənistanın gerbində Ağrı dağı əks olunmaqda, konstitusiyasında Türkiyə dövlətinə ərazi iddiaları qalmaqdadır. Ermənistanın hər sahədə hücumlarını davam etdirə biləcəyi ehtimalını daim gündəmdə saxlamalıyıq. Addımlarımız da ona uyğun olmalı, ermənilərə qarşı "kötək və kökə" siyasətini tətbiq etməliyik. Ermənistan daxili auditoriyanı sakitləşdirmək, əhaliyə "İrəvanın geri çəkilmədiyini" göstərmək üçün əsassız ittihamlara baş vurur. Azərbaycanın beynəlxalq nüfuzunu zədələməyə çalışır. Çünki başqa müstəvilərdə ardıcıl məğlub oldular. Brüssel görüşündən istədikləri nəticə çıxmadı, KTMT-ni prosesə cəlb edə bilmədilər. Bu amillər İrəvanda və erməni cəmiyyətində ciddi narahatlıq doğurur".

**F.Quliyev vurğulayıb ki, 1990-cı ilin yanvarında Azərbaycana daxil olan 66 minə qədər sovet ordusunun tərkibində Stavropol və Krasnodardan gətirilən erməni zabitləri və kursantlar var idi:** "Onların adları da məlum idi. O vaxt 100 cildlik cinayət işi hazırlanmışdı. Təəssüflər olsun ki, işin 60 cilddən çoxunu Moskvaya apardılar, ancaq geri qaytarmadılar. Ermənilərin Bakıda törətdikləri bütün cinayətlərin dəlil-sübutları mövcud idi. Ondan əvvəl də Sumqayıtdakı hadisələrin ermənilər tərəfindən təşkil edildiyini özləri etiraf etmişdilər. 20 Yanvar qırğınlarını həyata keçirmək üçün ermənilərin xüsusi canfəşanlığı olmuşdu.

Ruslara qarşı müəyyən addımların atılması, talançılıqla məşğul olunması və s. hamısı real faktlar idi. Məhz həmin ərəfədə Ermənistandakı azərbaycanlılar öz yurdlarından qovulmağa başlanmışdı. 1948-ci ildən sonra ilk dəfə idi ki, azərbaycanlılar kütləvi şəkildə öz torpaqlarından zorla çıxarılırdı. Ozamankı proseslərdə ermənilər hər cür vəhşiliyə əl atmışdı. Azərbaycanlı uşaqları diri-diri borulara yığıb ağzını qaynaq etmişdilər. Dövrün hadisələrində qətliama və soyqırıma məruz qalan, torpaqlarından qovulan ermənilər yox, azərbaycanlılar olub. Bunu təsdiqləyən çoxsaylı foto-video kadrlar və yüzlərlə sənəd var".

**Müsahibimizin fikrincə, Ermənistana qarşı davranışımız adekvat olmalıdır:** "Büdcədə hərbi xərclərin artırılması çox doğru qərardır. Sərhədlərimizdə ordumuzu daim gücləndirməli, cəmiyyətdə vətənpərvərlik hissini yüksək səviyyədə saxlamalıyıq. Nəzərə almalıyıq ki, ermənilər ya birbaşa özləri, ya da ağalarının sifarişi əsasında hər fürsətdən yararlanmaq istəyəcəklər. Azərbaycan mühüm geopolitik məkanda yerləşir və regionda böyük dövlətlərin maraqları daim toqquşur. Əksər hallarda isə maşa kimi ermənilərdən istifadə edirlər".

**İsmayıl Qocayev**

# Cosef Borrell Rusiyanı hədəfə aldı

## "Ukraynaya istənilən hərbi hücumun böyük nəticələri və ciddi xərcləri olacaq"




**Avropa İttifaqının (Aİ) Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Cosef Borrell Rusiyanı hədəfə alan çıxış edib.**

"Şərq" xarici KİV-ə istinadən xəbər verir ki, Cosef Borrel bu haqda Aİ müdafiə nazirlərinin Fransada baş tutan qeyri-rəsmi toplantısından sonra keçirilən mətbuat konfransında danışıb.

C.Borrel çıxışda Rusiyanı gərginliyi azaltmaq haqqında xəbərdarlıq edib və onu sülhə səsləyib: "Biz Rusiyanın Avropada təsir dairələri yaratmaq cəhdini rədd edirik. Tarixi yenidən yazmaq və ya keçmişə qayıtmaq mümkün deyil. Avropanın təhlükəsizliyinin əsasını təşkil edən fundamental prinsipləri bir daha təsdiqləyirik. Biz münaqişələrin sülh yolu ilə həlli üçün mövcud mexanizmi dəstəkləyirik. Rusiyanı güclü və qətiyyətlə gərginliyi azaltmağa çağırırıq. Ukraynaya istənilən hərbi hücumun böyük nəticələri və ciddi xərcləri olacaq. Buraya tərəfdaşlarımızla razılaşdırılaraq qəbul ediləcək məhdudlaşdırıcı tədbirlər daxildir".

Borrel, problemləri Rusiya ilə dialoq yolu ilə həll etmək istədiklərini ifadə edib:

"Ümumiyyətlə, Rusiya ilə dialoqa açığıq, lakin azadlığımızdan, suverenliyimizdən, müstəqilliyimizdən və fundamental dəyərlərə hörmətimizdən heç vaxt güzəştə getməyəcəyik".

**Çimnaz Şahlar**

# 100 il sonra belə Ermənistan Türkiyəyə lazım olmayacaq

## Ancaq indi Ankara ilə əməkdaşlıq İrəvana hava-su kimi lazımdır




*“Türkiyə ilə sərhədlərin açılması və iqtisadi-siyasi əlaqələrin tam bərpası ermənilərin rifahını, yaşayışını dəfələrlə yüksəldəcək”*

İsmayıl Qocayev

**Yanvarın 14-də Moskvada Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı təyin olunmuş xüsusi nümayəndələrin ilk görüşü baş tutub. Rusiya XİN başçısının müavini Andrey Rudenkonun vasitəçiliyi ilə keçirilən görüşdə Türkiyəni Serdar Kılıç, Ermənistanı isə Ruben Rubinyan təmsil ediblər.**

Ermənistan XİN-dən verilən açıqlamaya görə, konstruktiv şəraitdə keçən ilk görüşdə xüsusi nümayəndələr Ermənistan-Türkiyə dialoqu vasitəsilə nizamlanma prosesi ilə bağlı ilkin fikirlərini bölüşüblər. Tərəflər ilkin şərt olmadan tam nizamlanma üçün danışıqları davam etdirmək barədə razılığa gəliblər.

Rusiya beynəlxalq məsələlər şurasının baş direktoru Andrey Kortunov bildirib ki, Moskva Ermənistanla Türkiyə arasında yaranmaqda olan əməkdaşlığı praktiki müstəviyə keçirmək üçün tərəflərə Cənubi Qafqazda logistika şəbəkəsinin inkişafı layihələrini təklif edə bilər. Onun qənaətincə, bu, yalnız Ermənistan və Türkiyəyə deyil, həm də Ankara ilə fəal ticarət aparan Rusiyanın cənub regionlarına fayda gətirəcək. Ekspertin fikrincə, hər iki tərəf yolun yalnız başlanğıcındadır: ”Moskva üçün də bu vacib məsələdir, çünki İrəvan və Ankara ilə münasibətləri balansda saxlamaq kifayət qədər çətindir. Rusiya üçün Ermənistanla Türkiyə arasında seçim etmək həmişə çətin olub. Belə dialoqun bərpası, görünür, Rusiya diplomatları və siyasətçiləri üçün hansısa başağrısını aradan qaldıracaq”. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov qeyd edib ki, rəsmi Bakı Türkiyə-Ermənistan təmaslarının başlanmasını dəstəkləyir. Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq qəbul edilmiş birgə bəyanatlar və o bəyanatlarda əksini tapmış razılaşmaların yerinə yetirilməsinin alternativi yoxdur: ”Türkiyənin təşəbbüskarı olduğu Türkiyə-Ermənistan təmaslarının başlanmasını alqışlayırıq. Bunun davamlı olması, etimadın daha da gücləndirilməsi üçün ölkələr arasında kommunikasiyalar açılmalıdır, əlaqələr bərpa olunmalıdır. Birmənalı olaraq düşmənçilik əhval-ruhiyyəsi, düşmənçiliyə yönəlmiş ideologiya basdırılmalıdır, gündəlik həyatdan çıxarılmalıdır”.

NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina tviter səhifəsində Türkiyə və Ermənistana çağırış edib. Qurumun xüsusi nümayəndəsi bildirib ki, rəsmi Ankara və İrəvan bu istiqamətdə səyləri artırmalıdır və hərbi alyans prosesə dəstək verməyə hazırdır”.

Ermənistanın Siyasi İqtisadiyyat Araşdırmalar İnstitutunun politoloqu Benjamin Matyosyan isə bildirib ki, İrəvan Ankara tərəfindən de-fakto qoyulan bütün tələbləri yerinə yetirib. Onun sözlərinə görə, ənənəvi olaraq, Ermənistan-Türkiyə sərhədinin açılması müqabilində İrəvanın Qarabağından və saxta ”soyqırım”dan imtinası tələb olunurdu: ”De-fakto, bu tələblər artıq Ermənistan hakimiyyəti tərəfindən yerinə yetirilib”. Matosyanın sözlərinə görə, hazırkı Ermənistan-Türkiyə gündəmi erməniyönümlü deyil. Buna baxmayaraq, Ermənistan rəhbərliyi bu münasibətlərdə ”respublikanın iqtisadi vəziyyətini yaxşılaşdırmaq, eləcə də Qərb dövlətləri ilə yaxınlaşmaq imkanı” görür: ”İrəvan səmimi şəkildə inanır ki, Ankara vasitəsilə Qərb dünyasına, NATO strukturlarına inteqrasiya edə bilər. Ermənistan-Türkiyə dialoqu açıq-aydın ABŞ-ın himayəsi altında gedir. Bu dialoqun əsl məqsədi Rusiyanı bölgəmizdən sıxışdırıb çıxarmaqdır”.

**Ankara-İrəvan əlaqələrinin normallaşması prosesini ”Şərq”ə dəyərləndirən millət vəkili Elman Məmmədov deyib ki, Türkiyədə qardaş ölkənin vətəndaşlığını qəbul etmiş xeyli erməni yaşayır.** Eyni zamanda Türkiyədə müvəqqəti yaşayan və işləyən Ermənistan vətəndaşları da çoxdur: ”Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan bildirmişdi ki, ölkədə 100 mindən artıq Ermənistan vətəndaşı çörək pulu qazanır. Deyirlər, təyyarə reysləri də bərpa olunub. Bir məsələni də qeyd edim. Türkiyəyə səfərlərimdə hava limanında reyslərin elektron tablolarında İrəvan-Ankara reysləri diqqətimi çəkirdi. Hətta sual edirdim ki, Ermənistanla diplomatik əlaqələr olmadığı halda uçuşlar necə həyata keçirilir? Deyirdilər ki, onlar çarter (qeyri-müntəzəm) reysləridir. O cümlədən, Gürcüstan vasitəsi ilə Türkiyədən Ermənistana yük tırlarının getməsi ilə bağlı məlumatlar var idi. Yəni demək istəyirəm ki, iş adamlarının müəyyən formada əlaqələri olub. Ancaq indi söhbət rəsmi əməkdaşlıqdan və sərhədlərin açılmasından gedir. Reallıq odur ki, Ermənistan nəinki indi, hətta 100 il sonra belə Türkiyəyə lazım olmayacaq. Ermənistan bütün sahələrdə iflasa uğramış, iqtisadiyyatı çökmüş bir dövlətdir. Türkiyə ilə əməkdaşlıq Ermənistana hava-su kimi lazımdır. Ermənilər bu məsələdə minnətçi olmalı, yalvar-yaxar edən tərəf olmalıdır. Çünki Türkiyə ilə sərhədlərin açılması və iqtisadi-siyasi əlaqələrin tam bərpası ermənilərin rifahını, yaşayışını dəfələrlə yüksəldəcək. Ancaq ermənilər Türkiyəyə heç nə verməyəcəklər”.

**Parlament üzvü vurğulayıb ki, İrəvan Ankara ilə əməkdaşlıqda səmimidirsə, ilk növbədə konstitusiyalarında dəyişiklik etməli, Türkiyəyə qarşı ərazi iddialarından, qondarma ”soyqırım” ittihamlarından birdəfəlik vaz keçməlidir:** ”Türkiyə dövləti Ermənistanın qarşısına birmənalı şərt qoyur ki, ikili münasibətlərin bərpası Azərbaycanla normal əməkdaşlıqdan asılıdır. Ermənilər Azərbaycanın suverenliyini rəsmən tanımalıdır. Nəhayət, rəsmi Bakı ilə İrəvan yekun sülh sazişinə imza atmalıdır. Bu şərtlər reallaşmadan münasibətlərin normallaşmasını gözləmək mümkünsüzdür. Ermənilər tarix boyu türk millətinin başına oyun açıb, çoxsaylı qətliamlar, soyqırımlar törədib. Əfsuslar ki, ermənilər bu gün də öz çirkin niyyətlərindən əl çəkməyiblər. Ona görə də məsələyə kompleks şəkildə yanaşılmalıdır. Əlaqələr yaranacaqsa, hər məsələ nəzərə alınmalı, İrəvan öz səmimiyyətini sübuta yetirməlidir”.




# Müntəzəm avtobus marşrutları açılır

## İndi xeyli insan Şuşanı canlı olaraq görə biləcək

**Yanvarın 24-dən etibarən Şuşa və Ağdama ilk müntəzəm avtobus marşrutlarının açılması gözlənilir. Nəzərdə tutulan marşrut xətləri Bakı - Şuşa - Bakı, Əhmədbəyli - Şuşa - Əhmədbəyli, Bakı - Ağdam - Bakı və Bərdə - Ağdam - Bərdədir.**

**Kərim Kərimli:** “Ən əsası qiymətlər insanların cibinə uyğun olmalıdır”

Məlumata görə, biletlərin satışının onlayn qaydada həyata keçirilməsi nəzərdə tutulub. Onlayn sistem sərnişindaşımada sistemliliyin, növbəliliyin təmin edilməsi, kvotalara ciddi riayət edilməsi, müvafiq məlumat bazasının formalaşdırılması məqsədilə tətbiq ediləcək.

**Şuşaya avtobus marşrutlarının təşkilində diqqət edilməsi mühüm olan məsələləri ”Şərq”ə açıqlayan yazıçı-publisist, Şuşa sakini Kərim Kərimli bildirib ki, Şuşanı, Ağdamı ziyarət etmək istəyənlərə şərait yaradılmalıdır:** ”Şuşaya avtobus marşrutlarının açılmasını çox yüksək dəyərləndirirəm. Şəhərə əvvəllər yalnız xüsusi dəvətlər və səfərlər çərçivəsində gedilirdi. İndi isə bir çox insan Şuşanı canlı olaraq görə biləcəklər.

Ən əsası qiymətlər insanların cibinə uyğun olmalıdır. Son zamanlar insanların maliyyə çətinliyi çəkdiyinin şahidi oluruq. Lakin insanların arzusunun qarşısı alınmamalıdır. Şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına güzəştlər tətbiq olunmalıdır”.

**Xanlar ƏLİBƏY**

# Vətənpərvərlik qanununa ehtiyac yoxdur

## Üzeyir Cəfərov: “Deyəsən, bekarçılıqdır, bilmirlər nə işlə məşğul olsunlar”



**“Vətənpərvərlik tərbiyəsi haqqında” yeni qanun layihəsi hazırlanır”. Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev deyib ki, qanun layihəsi Komitənin 2022-ci il yaz sessiyası üçün İş planına daxil edilib.**

Bəxtiyar Əliyev vurğulayıb ki, qanun layihəsinin hazırlanması istiqamətində işlər gedir, bəzi dəqiqləşmələr aparılır: ”Yəqin ki, yaz sessiyası müddətində də bu layihə üzərində iş davam etdiriləcək”. Komitə sədri əlavə edib ki, qanun layihəsinin hazırlanması üçün hələ İşçi Qrup yaradılmayıb: ”İşçi Qrupun yaradılması nəzərdə tutulur. Çünki bütün materialların toplanması ilə bağlı həm şöbələr, həm də komitə üzvləri işləyirlər. Biz həm də ictimaiyyətin rəyini nəzərə alırıq, cəmiyyətdə gedən prosesləri izləyirik”. Xatırladaq ki, ”Vətənpərvərlik haqqında” qanun layihəsi bir neçə ay öncə də gündəmə gəlmiş və müzakirələrə səbəb olmuşdu. Məsələ ondadır ki, bəhs edilən qanun layihəsinin önəmini vurğulayanlarla yanaşı, hiss və duyğuların qanunla tənzimlənməsinin qeyri-mümkün və anlaşılmaz olduğunu iddia edənlər daha çoxdur. Aylar öncə qanun layihəsi ilə bağlı qəzetimizə danışan millət vəkili Fazil Mustafa da məsələyə fərqli yanaşmışdı. Deputat bildirmişdi ki, onun üçün vətənpərvərlik tərbiyəsinin qanunla həyata keçirilməsi bir az aydın deyil: ”Bir qədər fərqli baxışım var. Bəlkə də orada hansısa müddəalar var, amma bizim üçün aydın deyil. Qanun layihəsi ilə tanış olmadığım üçün deyə bilmərəm. Amma prinsipcə, vətənpərvərliyin qanunla tənzimlənməsi mənə qəribə gəlir”.

**Təkrar gündəmə gətirilən qanun layihəsi barədə fikirlərini ”Şərq”lə bölüşən hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov vətənpərvərliklə bağlı xüsusi qanunverici akta qətiyyən ehtiyac olmadığını düşünür. Ekspertin qənaətincə, bəzi deputatlarımız fərqli qanun layihələri təklif etməklə Ginnesin Rekordlar Kitabına düşmək niyyətindədir:** ”Azərbaycanda vətənpərvərliklə bağlı ayrıca qanuna heç bir ehtiyac yoxdur. Kontstitusiyamızda, çoxsaylı qanunlarımızda dövlətə və xalqa layiqli xidmət məsələsi öz əksini tapıb. Şəxsən mənə görə çox absurd layihədir. Qanunvericilikdə əks olunması zəruri olan xeyli vacib məsələlər var. Yeni dəb düşüb, çoxları oturub-durub, ”son reallıqdan, mövcud reallıqdan” danışırlar. ”Son reallıq” bizə deyir ki, Vətəni ikiəlli yox, dördəlli sevmək lazımdır?! Axı nə dəyişib, daha doğrusu, mənfiyə doğru nə baş verib? Əksinə, 44 günlük Vətən müharibəsindən, torpaqlarımızın işğaldan azad edilməsindən sonra insanların vətənpərvərlik duyğusu, torpağa məhəbbəti, orduya sevgisi dəfələrlə artıb. Qanun layihəsi mənə çatmır. Ümumiyyətlə, belə qanunları müzakirəyə çıxarmaq, vaxt aparmaq lazım deyil. Dinimiz də, konstitusiyamız da hər bir insana Vətən sevgisini aşılayır. Vətənpərvərliyi qanunvericilik formasına salmağı lüzumsuz sayıram. Deyəsən, bekarçılıqdır, bilmirlər nə işlə məşğul olsunlar. Tutaq ki, kimsə vətənpərvər deyil, bunu necə, hansı mexanizmlə müəyyən edəcəklər və ona hansı cəza veriləcək? Heç bir xarici ölkədə bənzər qanun yoxdur. Dünyanı özümüzə güldürməyək. XXI əsrdə bu, nə yanaşmadır?”.

**Ü.Cəfərov vurğulayıb ki, qanunlar konkret məsələləri tənzimləmək üçündür:** ”Ölkədə hansısa sahə ilə bağlı boşluq, çatışmazlıq olmalıdır ki, onunla bağlı ayrıca qanun layihəsinə ehtiyac duyulsun. Belə çıxır, Azərbaycanda vətənpərvərliklə bağlı boşluq var və biz onu qanunverciliklə tənzimləmək istəyirik. Şükür Allaha, Azərbaycan xalqının Vətən sevgisi çox yüksək səviyyədədir. Vətəndaş bunu sübuta yetirmək üçün nə etməlidir, yolda gedərkən ”Vətəni sevirəm” deyə qışqırmalıdır?! İstənilən məsələni ciddi əsaslandırmaq lazımdır”.

**İsmayıl Qocayev**

# Ət məhsullarının qiyməti bahalaşıb

## “Bu vəziyyət ən çox aztəminatlı sosial qruplara təsir göstərəcək”

Çimnaz Şahlar



“Hökumət mümkün qədər əlində olan iqtisadi alətlərdən istifadə edərək qiymət artımlarını qismən də olsa neytrallaşdırmağa çalışmalıdır”

**Azərbaycanda mal və quzu ətinin qiyməti bahalaşıb. Yanvar ayının ilk ongünlüyündən Bakıda mal ətinin bir kiloqramı 13-14 manata satılır. Əvvəllər isə mal ətinin bir kiloqramı 10,5 -11 manata satılıb.**

Bir kiloqramı 14 manata satılan quzu ətinin isə qiyməti hazırda 16-17 manat arasıdır. Satıcılar bunun səbəbini mal və quzu ətinin topdansatış qiymətinin bahalaşması ilə əlaqələndiriblər.

Ət məhsullarının qiymətinin bahalaşması əhali tərəfindən birmənalı qarşılanmayıb. İnsanlar yeni qiymətlərin hər kəsin büdcəsinə uyğun olmadığını düşünür.

**Mövzunu ”Şərq”ə şərh edən iqtisadçı-ekspert Rəşad Həsənov bildirib ki, bahalaşma əhalinin büdcəsinə mənfi təsir göstərəcək:** ”Qiymət artımı əhalinin alıcılıq qabiliyyətini zəiflədəcək. Təbii ki, müəyyən sosial qrup üçün imkanlar yaradır. Fermer təsərrüfatı ilə məşğul olanlar və ailə təsərrüfatlarında ət istehsalı ilə məşğul olanlara müsbət təsir göstərə bilər. Çünki onlar da ölkənin vətəndaşlarıdır. Bu aspektdən yanaşdıqda, əslində qiymət artımları hansısa formada istehsalı təşviq edir, onun üçün maraq yaradır və mənfəət normasını artırır. Amma indiki şərtlər daxilində, bu o qədər də geniş yayılmış hal deyil. Çünki ümumiyyətlə, istehsal qiymətlərinin indeksi daha sürətlə artır. Hazırkı şəraitdə qiymətlərin artmasının daha geniş kütlələrə təsiri göz önündədir”.

*Ekspert optimal səviyyənin qorunub saxlanılmasının çox vacib məqam olduğunu vurğulayıb:* ”İqtisadiyyatda belə bir məsələ var ki, hər hansısa məhsulun qiyməti artmırsa, bu zaman həmin məhsulların istehsalına maraq və təşviq əhəmiyyətli dərəcədə azalmağa başlayır. Nəticədə qıtlıq yaranır. Bu isə daha ciddi fəsadlara gətirib çıxarır. Amma təbii ki, qiymət artımları da həddən artıq olub optimal səviyyəni pozduqda əhalinin alıcılıq gücünə mənfi təsir göstərir. Bu da dolayısı ilə tələbin aşağı düşməsinə səbəb olur. Burada optimal səviyyənin qorunub saxlanılması çox vacib məqamdır”.

**İqtisadçının sözlərinə görə, qiymət artımı ən çox aztəminatlı sosial qruplara təsir göstərəcək:**

”Qiymətlərin artmasının hazırkı vəziyyət daxilində xüsusilə həssas sosial qruplara təsiri çox ciddi hiss olunur. İnflyasiya bəzi hallarda ümumi qiymətləndirmələr üçün istifadə olunur. Amma düşünürəm ki, bu doğru deyil. Ərzaq məhsullarının qiymətinin 10 faiz artması o demək deyil ki, hər kəsin büdcəsində eyni formada əks olunur. Çünki əhalinin aztəminatlı sosial qrupları, xüsusilə də birinci və ikinci desil üçün bunlar əsas xərclərdir. Ona görə də bu artımlar aztəminatlı sosial qruplara daha mənfi təsir göstərəcək. Azərbaycanda təxminən 4-5 milyon belə insan var. Pensiyaçılar, müavinət alanlar, minimum əməkhaqqı ilə çalışanlar və s. bu qrupa aiddir. Bu, arzuolunan hadisə deyil. Təəssüf ki, bu qiymət artımları 2022-ci ildə əksər sahələrdə özünü yüksək şəkildə göstərəcək. Hökumət mümkün qədər əlində olan iqtisadi alətlərdən istifadə edərək bu qiymət artımlarını qismən də olsa neytrallaşdırmağa çalışımalıdır”.

# Ermənistana 6 ay vaxt verilib

## Bakı yaz aylarında sərhədin demarkasiyasına start verilməsini planlaşdırır



**”Prezident İlham Əliyevin müsahibəsi son geosiyasi proseslər, sərhəd döyüşləri fonunda, həm də müəyyən mesajların yenilənməsi baxımından əhəmiyyətlidir”.**

**Bu barədə ”Şərq”ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, Prezidentin iqtisadi məsələlərdən danışarkən, epizodik toxunduğu iki məsələ müəyyən nəticələr çıxarmağa imkan verir:** ”Birincisi, Azərbaycan-Ermənistan dövlət sərhədinin praktiki olaraq bərpa edilməsidir. Sərhədin Zəngilandan Laçına qədər olan hissəsinin bərpa edildiyi, əsas problemin davamlı toqquşmaların yaşandığı Kəlbəcər istiqamətində olduğu haqda məlumatlar var idi. Hərçənd, dövlət başçısı bildirdi ki, ”biz bu sərhədlərə çıxmalıydıq, bu sərhədi qorumalıydıq və bu gün buna nail olmuşuq - sərhədboyu Arazdan Murov dağına qədər”. Bu o deməkdir ki, cənubdan şimala qədər bütün istiqamətlərdə Ermənistanın işğal dövründə irəli çəkdiyi sərhəd xətti bərpa edilib. Bundan sonrakı mərhələ delimitasiya-demarkasiya işinin həyata keçirilməsidir. Delimitasiya-demarkasiya razılaşmasının icrası uzanarsa belə, Azərbaycan faktiki olaraq sərhədə çıxıb. Bakının əsas tələbi anklavlarla bağlıdır. XİN başçısı Ceyhun Bayramov da ötən ilin sonunda bildirdi ki, ”anklavlar məsələsinin həlli delimitasiya prosesində baş verə bilər. Azərbaycanın yanaşması ondan ibarətdir ki, bu proses danışıqlar masasında aparılmalı, hərbçilər arasında hər hansı gərginlik yaradılmamalı, buna imkan verilməməlidir” və bununla İrəvana ”məsələ masada həll edilməsə, sahədə həll ediləcək” mesajı verildi. İkincisi, Prezidentin Ağdərə ilə bağlı dedikləridir:

- Azərbaycanda Ağdərə adlı rayon yoxdur, 1992-ci ildə rayonun ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonlarına daxil edilib və ölkə rəhbəri İlham Əliyev də rayondan yox, Ağdərə ərazisini turizm mərkəzinə çevirməkdən, insanların ora qayıtmasını təmin etməkdən bəhs edir. Hesab etmək olar ki, burada keçmiş Ağdərə rayonunun hazırda Azərbaycan Ordusunun nəzarəti altında olan əraziləri nəzərdə tutulur. Prezidentin ”Ağdərə” adını xüsusi vurğulaması təsadüfə bənzəmir və burada sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərə qayıdış mesajı yer alır. Həm də həmin ərazilərdə yaşayan ermənilərə ”yaxşı həyat” mesajı verilir”.

**Ekspertə görə, müsahibənin siyasi hissəsində Prezident bir çox məsələyə açıq mətnlə toxundu:** ”Prezident sülh sazişinin imzalanması - sərhəd müəyyən edilməsi, qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınması, kommunikasiyanın açılmasına start verilməsi - təklifinin hələ də gündəmdə olduğunu bildirdi. Sonda əlavə etdi ki, ”qarantiya verə bilmərəm ki, bu, altı aydan sonra da eyni olacaq. İstəmirlər, yaxşı, onda olmasın, onda görərik nə olacaq”. Bu o deməkdir ki, Azərbaycan sülh sazişi üçün Ermənistandan altı ay müddətində cavab gözləyir. Altı ay müddətində ilkin olaraq sərhədin delimitasiya və demarkasiyası praktiki mərhələdə başlanmalıdır. Soçi razılaşmasına görə ikitərəfli komissiya yaradılmalıdır və istisna deyil ki, Bakı yaz aylarında - hava şəraitinə uyğun olaraq sərhədin demarkasiyasına start verilməsini planlaşdırır. Bu müddətdə Ermənistan tərəfindən gözlənilən cavab verilməsə, Bakı praktiki addımlar ata bilər. Bu addımların nədən ibarət ola biləcəyini Prezident açmır, lakin istisna deyil ki, Moskvanın təqdim etdiyi sərhəd xəritəsinə uyğun bərpa prosesinə start verilsin və burada əsas məsələ yenə anklavlar olacaq: məsələnin həlli hərbçilərin öhdəsinə buraxıla bilər”.

**İsmayıl Qocayev**



**Xəbər verdiyimiz kimi, Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məmmədli Cavidan Abdüləziz oğlu silahla davranış qaydalarının ciddi şəkildə pozulması nəticəsində həlak olub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırma aparılır.**

# “Hərbi qulluqçumuzun həlak olduğu şərait mütləq öyrənilməlidir"

## Ədalət Verdiyev: “Burda istintaq orqanının araşdırıb, cavab tapa biləcəyi kifayət qədər ciddi suallar var”



Qeyd edək ki, həlak olan C.Məmmədli əslən Şəki şəhərindəndir. O, iyul ayında hərbi xidmətini başa vuracaqdı.

İstər İkinci Qarabağ savaşında, istərsə də ondan öncəki dönəmlərdə mediada bəzi hərbi qulluqçuların silahla davranış qaydalarında yol verdiyi nöqsanlara görə həlak olması xəbərlərinə təəssüf ki, rast gəlirik. Bəs görəsən, hərb sahəsində baş verən bu kimi faciəvi hadisələrin qarşısını almaq üçün hansı qabaqlayıcı tədbirlər görmək olar?

**Hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında bildirib ki, istənilən halda hərbi qulluqçunun təhlükəsizlik qaydalarını pozaraq həlak olması ağrılı və kədərli bir faktdır**: ”Burda istintaq orqanının araşdırıb, cavab tapa biləcəyi kifayət qədər ciddi suallar da var. Bunlardan biri də həmin hərbi qulluqçunun təhlükəsizlik qaydaları ilə tanış olması və bu tanışlıq haqqında müvafiq sənədlərə imza atmasıdır”.

**Hərbi ekspert ehtiyatsızlıq qurbanı olan əsgərin hansı şəraitdə təhlükəsizlik qaydalarını pozmasını araşdırmağın vacib olduğunu vurğulayıb:** ”Real hadisənin baş verdiyi şərait mütləq öyrənilməlidir. Hərbi Prokurorluq da hər bir faktla əlaqədar zamanında rəsmi açıqlama ilə çıxış etməlidir ki, ictimaiyyətdə yaranan suallara aydınlıq gətirilsin” .

Ə.Verdiyev hərb sahəsindəki belə faciəvi halların qarşısını almaq üçün hərbi qulluqçulara silahla davranış qaydalarına aid əlavə təlimlərin keçirilməsinin və həmin bölmədə nizam-intizamın səviyyəsinin araşdırılmasının vacib olduğunu diqqətə çatdırıb.

**Günəş Mərd**

# Bölük komandirlərin toplantısı hər il keçirilir

## Onlar xəritə üzərində həvalə olunan işləri yerinə yetirirlər



**Sücayət Mehti**

**Ordumuzun bölük komandirləri ilə təlim toplanışları keçirilib. Təsdiq olunmuş döyüş hazırlığı planına görə, hərbi hissələrdə bölük komandirləri ilə komandir hazırlığı toplanışları reallaşdırılıb.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Toplanış müddətində komandirlər yüksək texnologiyanın da tətbiqi ilə ümumqoşun hazırlığı üzrə keçirilən nəzəri və praktiki məşğələlərdə müxtəlif tapşırıqları yerinə yetiriblər.

Toplanışın keçirilməsində başlıca məqsəd komandir heyətinin idarəetmə bacarıqları və praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov ”Şərq”ə açıqlamasında bildirib ki, bölük komandirləri toplantısı hər il keçirilir:**

”Döyüş hazırlığı proqramında əsas yer tutur. Toplantı zamanı bölük komandirləri ixtisasları üzrə praktiki bacarıq və idarəetmə üsullarını öyrənirlər. Bundan başqa xəritə üzərində də həvalə olunan işləri yerinə yetirirlər. Adətən toplantının sonunda bölük komandirlərinin bilik və bacarıqları yoxlanılır. Bu da yekun olaraq qiymətləndirilir. Bölük komandirləri üçün bu formada toplantı keçirmək vacib mərhələdir. Toplantı vasitəsilə əsas məqsəd onların işi icraetmə metodikasını mərkəzləşmiş şəkildə çatdırmaqdır. Bölük komandiri işinin özülünü şəxsi heyəti idarəetmə və müəyyən bir formada vərdişlərin təkmilləşdirilməsi təşkil edir. Bildiyimiz kimi, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsindən də təcrübə qazanıb. Bölük komandirlərinin çoxu məhz müharibə iştirakçılarıdır”.

*Polkovnikin qənaətincə, İkinci Qarabağ müharibəsində əldə edilən təcrübələr öz əksini hər zaman belə toplantılarda, tədbirlərdə tapacaq:*

”Məlum olduğu kimi, müharibədən sonra ordumuzda islahatlar aparılır. Qazanılan praktikalardan irəli gələrək yuxarı komandanlığın tapşırıqları, yeni orduda olan məlumat və tələblər bu toplantıda bölük komandirlərinə çatdırılıb”.

**Azərbaycanda ərzaq məhsulları dekabr ayında 16 faiz bahalaşıb. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, 2021-ci ilin dekabr ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,6 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 112,0 faiz təşkil edib. 2021-ci ilin dekabr ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 102,6 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 115,8 faiz təşkil edib.**

Ötən ilin dekabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox artım qarabaşaq yarmasının, çörəyin, unun, makaron məmulatlarının, düyünün, toyuq, mal və qoyun ətinin, təzə və dondurulmuş balığın, qatılaşdırılmış şəkərli və pasterizə olunmamış üzlü südün, pendirin, kəsmiyin, yoqurtun, xamanın, yumurtanın, kərə və günəbaxan yağlarının, süfrə marqarininin, narın, heyvanın, bananın, almanın, armudun, qozun, fındığın, xiyarın, pomidorun, balqabağın, kartofun, soğanın, sarımsağın, mərcinin, şəkər və şəkər tozunun, konfetlərin, çayın, qəhvə və kakao tozunun, limonadın, azalma isə əsasən portağalın, limonun, xurmanın, kivinin, kələmin və yerkökünün qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2021-ci ilin dekabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,7 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 107,7 faiz təşkil edib.

Eyni zamanda, Azərbaycanda ötən il inflyasiya 7 faizə yaxın olub.



# Bahalaşmanın qarşısını almağın bircə yolu var

## Natiq Cəfərli: “Bütün zəruri ərzaq məhsullarının gömrük rüsumlarını azaltmaq lazımdır”

**Qiymət artımları ilə bağlı ”Şərq”ə danışan iqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycanda qiymət artımı və inflyasiya keçən ildən başlayaraq çox böyük vüsət alıb. O, bunun yaranma səbəblərini sadalayıb:** ”Bunun əsas səbəblərindən biri dünyada da ərzaq indeksinin yüksəlməsidir. Hökumətin atdığı addımların da buna təsiri oldu. İlin əvvəlində dizel yanacağının qiymətinin 34 faiz artımı proseslərə kifayət qədər ciddi şəkildə təsir göstərdi və qiymət artımını sürətləndirən faktorlardan birinə çevrildi. Bunun nəticəsində də yerli istehsalda xarici istehsal ilə parelel qiymətlər artmağa başladı. Bu da inflyasiyanı sürətləndirən əsas amillərdən birinə çevrildi. Burada hökumətin inzibati qaydada hansısa bir formada qiymətlərə müdaxilə etmək şansı yoxdur. Qanunvericilikdə də belə bir müddəa yoxdur. Dövlətin qiymət təyin etmək səlahiyyəti yoxdur. Yalnız Tarif Şurasında qiymətlər tənzimlənə bilər.

*İqtisadçı qiymət artımlarının qarşısını almaq üçün atıla biləcək addımları sadalayıb:* ”Dövlətin əlində kifayət qədər alətlər var ki, onlardan doğru istifadə etməklə qiymət artımının qarşısını ala biləcək addımlar atıla bilər. Əsasən də gömrük rüsumları ilə bağlı çevik siyasətə ehtiyac var. Ölkənin ehtiyacı olan, əsasən də ərzaq məhsulları, gündəlik tələbat malları, ölkədə istehsalı olmayan məhsulların gömrük rüsumlarını azaltmaqla inflyasiyanın artım tempini səngitmək olar. Bu addımların atılması ilə Azərbaycanda ən azından qiymət artımını tənzimləmək, inflyasiyanın qarşısını almaq olar. Daha uzun müddətli vaxtda istehsalın artırılması, yerli istehsalın yüksək səviyyəyə çatdırılması kimi işləri görmək olar. Amma indiki vəziyyətdə tez və çevik davranmağın əsas yolu gömrük və vergi rüsumları ilə bağlı qiymətləri azalda biləcək addımların atılmasıdır”.

**Çimnaz Şahlar**

# Finlandiya və İsveçi də NATO-ya çağırırlar

**NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen Finlandiya və İsveçin NATO-ya qoşulması məsələsinin tez bir zamanda həll oluna biləcəyini deyib. Onun sözlərinə görə, hazırda hər iki ölkə bunun üçün lazımi tələblərə cavab verir: ”Əgər Finlandiya və İsveç NATO-ya üzv olmaq üçün müraciət etsəydilər, biz bu problemi bir gecədə həll edə bilərdik”.**

Qeyd edək ki, NATO-nun hazırkı baş katibi Yens Stoltenberq daha əvvəl də bildirib ki, İsveç və Finlandiyanın NATO-ya daxil olması çox sürətlə gedə bilər, yetər ki, bunu özləri istəsinlər. O, bu ölkələrin demək olar ki, bütün sahələrdə NATO standartlarına cavab verdiyini, çox yaxşı təşkil edilmiş və idarə olunan müdafiə və təhlükəsizlik institutlarına malik olduqlarını söyləyib. Finlandiyanın Xarici işlər naziri Pekka Haavisto isə Finlandiyanın hazırda NATO-ya üzvlüyünün müzakirə edilmədiyini bildirib.

**Analitik Aqşin Kərimov mövzunu ”Şərq”ə dəyərləndirib. O, NATO-nun qapısını açıq elan etməsində Rusiyanın roluna diqqət çəkib:**

”Rusiya ilə NATO arasında danışıqlar Ukrayna böhranının yaratdığı çatları ”təmir etmək” əvəzinə, onun çərçivələrini daha da genişləndirir. NATO və Rusiyanın strateji



inadkarlığı hərbi-siyasi tabloya müharibə senarisini gətirir ki, bunun da fəsadlarının altından çıxmaq çətin olar. Rusiyanın NATO-dan hazırkı tələbi onun təhlükəsizliyinə zəmanət verən sənədi imzalamasıdır. NATO da buna kontur - arqumenti olaraq bildirir ki, istənilən ölkə üçün üzvlük qapım açıqdır. Rusiya əlindəki bütün rıçaqları işə salaraq NATO-nu danışıqlar masasında güzəştə məcbur etmək istəyir, eləcə də Qərb Moskva üzərində böyük təzyiq yaradan sanksiya amilini önə çəkir, amma bu, Kremli çəkindirmir”.

**A.Kərimova görə, tərəflərin belə əsəb müharibəsi bu dəfə Rusiyanın silahlarını Ukraynadan kənar ölkələrə - İsveçə, Finlandiyaya tuşlamasına gətirib çıxarır:** ”Əvvəldən də Rusiyanın İsveç və Finlandiyaya qarşı xoş münasibəti olmayıb, çünki bu ölkələr də NATO üzvü olmaq üçün dünyanın ən böyük hərbi təşkilatının ”qapısını döyənlərdəndir”. Rusiya isə NATO ilə danışıqların nəticəsiz qalmasından istifadə edərək Baltik donanmasının potensialını əzələ nümayişi üçün işə salır. Belə ki, Rusiya Baltik dənizində İsveçin Qotland adası istiqamətində qüvvələr cəmləşdirir və İsveç də adekvat tədbirlər həyata keçirir. Rusiyanın Kalininqrad eksklavına (Rusiya ərazisidir) dislokasiya etdiyi qüvvələr, ora yerləşdirilən nüvə başlıqlı raketlər Avropanı, NATO-nu qorxudan faktora çevrilir. Çünki bu silahların ”X” anında konkret olaraq hansı koordinatlara atəş açacağı barədə aydın təsəvvürlər yoxdur”.

**Analitikin fikrincə, Kalininqradda yerləşdirilən Baltik donanmasına məxsus silahlar, bu regionun Avropanın burnunun ucunda olması isə situasiyaya əlavə gərginlik verir:** ”Belə ki, Kalininqrad: NATO üzvü olan Polşa ilə 50 kilometr məsafəyə malikdir. Burdan Polşaya və Litvaya açılan Suvalki dəhlizi (100 kilometr genişlikdə) NATO-nun ”yumşaq qarnıdır”. Eləcə də NATO-nun digər üzvləri olan Almaniya, Danimarka, Litva, Latviya və Estoniya, Norveçə təhlükələr yaradır. Baltik donanmasının Kalininqraddan marşrut alan sualtı gəmiləri zamanla İsveçin dəniz məkanına, havaya qalxan döyüş təyyarələri Baltikyanı ölkələrin hava sərhədlərinə müdaxilə edib ki, bu da Kremlin daha iddialı olduğunu ortaya qoyur”.

“Alyans Baltik dənizi hövzəsində yerləşən üzvlərinin təhlükəsizliyini qorumaq üçün onları silahlandırır”

**Aqşin Kərimov Rusiyanın Baltik dənizindəki yeni imkanlar qazanmasında israrlı davranışlarının NATO-nun qarşısında dəniz mövqelərini möhkəmləndirmək prioritetləri qoyduğunu söyləyib.** Onun qənaətincə, Finlandiya və İsveçin üzvlüyə cəlb olunması da bu istiqamətdə atılan addımlardan biridir: ”NATO Baltik dənizi hövzəsində yerləşən üzvlərinin təhlükəsizliyini qorumaq üçün onları silahlandırır, amma bu ona Rusiya üzərində əhəmiyyətli üstünlük qazandırmır. Rusiyanı üstün edən digər cəhət əlverişli strateji coğrafiyada -Kalininqradda - mövqelənməsi və burda hərbi gücünü artırmasıdır. Rusiyanın indiki davranışlarının hədəfləri budur: NATO-nu danışıqlarda güzəştə təhrik etmək (burada blef də mümkündür); Bu plan baş tutmayacağı təqdirdə, Ukraynaya müdaxilə etmək; Ukraynada məğlub olmaq və istədiyinə çatmamaq riskinə qarşı Baltik dənizində eskalasiya başlatmaq”.

**Günəş Mərd**

# Qoşunlar çıxsa da, Kremlin tapşırıqları icra olunur

## Tokayev Nazarbayevin bütün izlərini silmək niyyətindədir





İsmayıl Qocayev

**”Yanvarın 19-dək bütün sülhməramlılar Qazaxıstanı tərk edəcəklər”. Bunu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Stanislav Zas ”Belarus 1” telekanalına müsahibəsində deyib. Zas bildirib ki, Qazaxıstanda vəziyyət yaxşılaşır, lakin ölkə hakimiyyətinin hələ çox işi var.**

Baş katib Qazaxıstanda iğtişaşlar zamanı saxlanılanlar arasında əcnəbilərin olduğunu qeyd edib. Lakin əksər ekspertlərə görə, rus qoşunları Nursultan Nazarbayevin bütün izlərini silmədən Qazaxıstanı tərk etməyəcək. Analitiklərin fikrincə, KTMT qüvvələrinin Qazaxıstanı tərk etməsi fonunda eks-prezident Nursultan Nazarbayevə yaxınığı ilə tanınan şəxslərin, həmçinin birinci və ikinci dərəcəli qohumlarının vəzifədən getməsi diqqət çəkir. Əvvəl Nazarbayevin kürəkənləri - ”KazTransOil SC”nin İdarə Heyətinin sədri Dimaş Dosanov və ”Atameken” Milli Sahibkarlar Palatasının rəyasət heyətinin sədri Timur Kulibayev vəzifələrindən istefa verdilər. Daha sonra isə Nazarbayevin digər kürəkəni ”QazaqGaz SC”nin İdarə Heyətinin sədri Kayrat Şaripbayevin səlahiyyətlərinə xitam verildi. Üstəlik, Nazarbayevin qardaşı oğlu Samat Abiş Milli Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edildi.

*"Hətta hazırda Qazaxıstanda paytaxtın əvvəlki adının qaytarılması üçün imza toplanmasına başlanılıb"*

Qazaxısanda gedən prosesləri ”Şərq”ə təhlil edən siyasi şərhçi Turan Rzayev bildirib ki, Qazaxıstan Prezidenti Qasım-Jomard Tokayev eks-prezident Nursultan Nazarbayevin Qazaxıstandakı bütün izlərini silmək niyyətindədir. Ekspertin qənaətincə, bu, ilk növbədə Kremlin tapşırığı olsa da, Tokayevin də maraqlarına uyğundur: ”Prinsip etibarilə Qazaxıstanda sosial narazılıq adı altında başlanan etirazlarda Nazarbayevin heykəllərinin dağıdılması etirazların məqsədinin nə olduğunu göstərmişdi. Kreml Nazarbayevin və klanının ölkədəki nüfuzunu və prezident Tokayevin təkbaşına nəyəsə nail ola bilməyəcəyini bildiyi üçün KTMT-nin Qazaxıstana çağrılması ideyasını irəli sürdü. Son istefalar fonunda Nazarbayev və klanının məğlub olduğu şübhəsizdir. KTMT faktiki olaraq Tokayevə Nazarbayevin Qazaxıstandakı bütün izlərini silməyə yardımçı olur. Hətta hazırda Qazaxıstanda paytaxtın əvvəlki adının (Astana -red) qaytarılması üçün imza toplanmasına başlanılıb”. Analitik qeyd edib ki, fəallar, həmçinin şəhərin yerli hakimiyyət orqanlarından Nazarbayevin adını daşıyan küçələrə Qazaxıstanın ”dövlətçiliyini, birliyini və müstəqilliyini vurğulayan” neytral adların verilməsini tələb ediblər: ”Məsələn, onlar Almatıdakı Nazarbayev prospektinə ”Respublika” adının verilməsini xahiş ediblər. Nəticə etibarilə bütün bunların KTMT Qazaxıstanı tərk edəcəyi tarix ərəfəsində baş verməsi deməyə əsas verir ki, Kreml təkcə Nazarbayevin siyasətini və kadrlarını deyil, onun izlərini də silir. Bu həm də gələcəkdə, Nazarbayevin başlatdığı milliləşmə hərəkatının yenidən canlanmaması üçün daxili auditoriyaya və siyasi elitaya verilən açıq mesajdır”.

**Qazaxıstan 2022-ci ilin ilk günlərini gərgin keçirdi. Ölkədə ölümlə nəticələnən iğtişaşlar baş verdi. Aktau və Janaozen şəhərlərinin əhalisi yanacaqdoldurma məntəqələrində istifadə olunan sıxılmış qazın qiymətinin iki dəfə bahalaşmasına etiraz edərək küçələrə axışdı.**



# Ziyalılar birmənalı olaraq qazax xalqını müdafiə etməlidir

## Elxan Zal Qaraxanlı: “Qazaxıstanda proseslər zamanı ölkə ziyalıları hakimiyyəti müdafiə edən və radikallar olmaqla iki qrupa ayrılmışdı”

Getdikcə genişlənən aksiyalar ölkədə böyük toqquşmalarla nəticələndi. Vətəndaşlar və güc strukturları arasında itkilər oldu. Ölkənin bir sıra bölgələrində çoxsaylı insan tələfatı ilə nəticələnən faciəvi hadisələrlə bağlı yanvarın 10-u Qazaxıstanda Ümummilli Matəm Günü elan olundu.

İstənilən ölkənin həyatında baş verən proseslərdə hadisələri normal axara salmaq və milləti vahid məqsəd ətrafında səfərbər etmək ilk növbədə hər bir ölkənin ziyalılarının missiyasıdır. Tarixə nəzər salsaq görərik ki, bir çox liderlər ölkə və dövlət əhəmiyyətli məsələlərin müzakirəsində ziyalıları öz mövqeyini bildirməyə çağırıb. Bəs, Qazaxıstandakı hadisələrə qazaxlı ziyalıların münasibəti necə olub? Eyni zamanda qardaş qazax xalqının həyatında baş verən son hadisələrdə Azərbaycan ziyalıları onlara hansı dəstəyi nümayiş etdirib? Ümumiyyətlə, adətən belə məqamlarda ziyalılar necə hərəkət etməlidir?

**Mahmud Kaşqari adına Beynəlxalq Fondun rəhbəri, türk dünyasının tanınmış şairi Elxan Zal Qaraxanlı ”Şərq”ə danışarkən bildirib ki, Qazaxıstanda proseslər zamanı ölkə ziyalıları hakimiyyəti müdafiə edən və radikallar olmaqla iki qrupa ayrılmışdı:** ”Qazaxıstan Yazıçılar Birliyinin rəhbəri Uluğbek Esdevletinin rəhbərliyi ilə bir qrup mədəniyyət xadimi dövlətçiliyi müdafiəyə qalxdı. Radikal kəsim də tənqidə başladı. Ziyalılar əlbəttə ki, olaylara münasibət bildiriblər. İndinin özündə də bu proses davam edir. Qazaxıstan bizdən bir qədər mürəkkəb ölkədir. Orda rus dilini bilən əhalinin sayı hardasa 90 faizdən yuxarıdır. Bu da prosesi bir qədər qəlizləşdirir. Onların da taleyi belə gətirib. Ən böyük qazax şairlərindən biri olan Oljas Süleymanov da qazax dilini yaxşı bilmədiyi üçün rusca yazırdı”.

Elxan Zal Azərbaycan ziyalılarının qazax xalqına dəstəyinə diqqət çəkib:

”Yazıçılar Birliyinin sədri Anar, jurnalist Aida Eyvazlı hadisələrə münasibət bildirdi. Qazaxıstanın Yazıçılar İttifaqına məktub göndərildi. Mən özüm də hadisələri diqqətdə saxlayıb, qazax yazıçılarının fikirlərinə şərhlər bildirmişəm. Ümumi götürdükdə hiss olunur ki, bizim ziyalılar ordakı məsələdən tam xəbərdar olmadıqları üçün bu mövzuda obyektiv fikir səsləndirməkdə çətinlik çəkdilər. Bildiyimiz kimi hadisələrin gedişatında Qazaxıstanda internet bağlantısı kəsildi, telefon danışıqları məhdudlaşdırıldı. Bu özü informasiya axınını əngəllədi. Belə olduqda rus və ya türk mətbuatından hansısa məlumatı oxuyub ona uyğun fikir bildirənlərin də obyektivliyinə tam inanmaq olmadı. Ümumən ziyalılar baş verən hadisələr zamanı bir qədər gözləmə mövqeyi tutub, təhlil aparıb sonra münasibət bildirməlidir”.

**Elxan Zal belə hadisələrdə ziyalı mövqeyinin olduqca önəmli olduğunu söyləyib və Qazaxıstanın Xalq yazıçısı Oljas Süleymanovun 20 Yanvar hadisələri zamanı ölkəmizə gəlişinə diqqət çəkib:** ”O, bəzi təzyiqləri gözaltına alıb, Azərbaycanın haqq səsini dünyaya çatdırmağa gəldi. Dünya şöhrətli adamın belə məqamdakı münasibəti Azərbaycan xalqına bir məlhəm oldu. Xalq gördü ki, dünyada yalnız deyil. Oljasdan sonra başqa ziyalılar da bizi müdafiə etməyə başladı. Təbii ki, bu hadisəyə də ziyalıların münasibəti hökmən olmalıdır. 20 Yanvar hadisələrində hər şey birmənalı idi. Sovet qoşunları ölkəmizə girib xalqa divan tutmuşdu. Qazaxıstandakı situasiya isə bir qədər fərqlidir. Bura qoşunlar ölkə prezidentinin çağırışı ilə gəldi. Mənim də məlumatım yoxdur ki, ordakı çevrilişdə radikal qruplar iştirak edib, ya yox. Müxtəlif adamlarla bunu müzakirə etmişəm. Kimi təsdiq edir, kimi inkar. Sanki dövlət çevrilişi etmək istəyən şəxslər qəfil peyda olub. Bu da digər tərəfdən ziyalıların münasibətini çətinləşdirir”.

Yazıçı son olaraq diqqətə çatdırıb ki, Qazaxıstandakı hadisələrin hazırda türk dünyası üçün müsbət və ya mənfi təsirini dəqiq söyləyə bilmərik. Onun fikrincə, qazax ziyalıları belə məqamlarda informasiya məkanında diqqətli olub, birmənalı olaraq qazax xalqını müdafiə etməlidir.

**Günəş Mərd**

# NATO Rusiyanı mühasirəyə alır

## Kreml alyansdan Şərqə genişlənməklə bağlı zəmanət ala bilməyəcək

**Qərblə Rusiya arasında gərginlik artmaqdadır. Tərəflər arasında Cenevrədə görüş baş tutsa da, aradakı buzlar əriməyib. Kreml sözçüsü Dmitri Peskov NATO-nu Ukraynanı işğal etməkdə suçlayıb. Onun sözlərinə görə, Moskva Ukraynanın işğalına dözməyəcək: ”Rusiya Qərbin Ukraynanı zəbt etməsi ilə barışa bilmir.**

Ukraynanın NATO tərəfindən tədricən işğalını müşahidə edirik. Hadisələrin bu cür gedişatı Moskva ilə alyans əlaqələrini qırmızı xəttə gətirib çıxarıb”. Peskov diqqətə çatdırıb ki, Ukrayna ilə sərhəddə gərginlik həddindən artıq yüksəkdir. Ona görə də Rusiya təhlükəsizlik zəmanəti ilə bağlı təkliflərinə birbaşa cavab almaqda israrlıdır: ”Rəsmi Moskva konkret təkliflərinə çox konkret cavab istəyir. Avropanın bu hissəsində həddindən artıq çox yüksək gərginlik var. Belə bir vəziyyət qitəmiz üçün son dərəcə təhlükəlidir”. Peskov həmçinin qeyd edib ki, ABŞ Rusiyanın guya Ukrayna ətrafında eskalasiya planlaşdırdığına dair iddialarına dair heç bir sübut təqdim etməyib: ”Biz hələ də sübut gözləyirik”.

Rusiyanın ABŞ-dakı səfiri Anatoli Antonov da bildirib ki, NATO və ABŞ-la danışıqlar hələlik konkret nəticə verməyib. Səfirin sözlərinə görə, dialoqun davamı alyans ölkələrinin Moskvanın təhlükəsizlik zəmanəti ilə bağlı təkliflərinə reaksiyasından asılıdır. Antonov əlavə edib ki, Rusiya dialoqu davam etdirməyə hazırdır: ”Ukraynadakı vəziyyət danışıqların gündəmində deyil və bu məsələ NATO-nun Brüsseldə keçirilən məsləhətləşmələrdə yalnız ikinci dərəcəli mövzu kimi qeyd olunub”. Rusiyalı diplomat Şimali Atlantika blokunun şərq istiqamətində davam edən irəliləyişini Rusiyanın milli təhlükəsizliyinə əsas təhdidlərdən biri adlandırıb. Tərəflərin ciddi şəkildə bir-birinə qarşı sərt mövqedə dayandığı vaxtda NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen açıqlama verərək bildirib ki, Finlandiya və İsveç NATO-ya üzvlüklə bağlı müraciət etdikdən bir gün sonra Alyansa qəbul olunacaqlar. Onun fikrincə, bu məsələ Ukraynaya edilən hücumdan sonra müzakirə edilə bilər. Keçmiş baş katibin sözlərinə görə, Finlandiya və İsveç bütün lazımi üzvlük meyarlarına cavab verir.



*"Hətta bəzi dövlətlərin bloka qoşulmasını da müşahidə edəcəyik"*

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov ”Şərq”ə deyib ki, başda ABŞ olmaqla Qərb ölkələrinin Rusiyaya qarşı təzyiqləri artmaqdadır. Ekspertə görə, NATO-nun keçmiş baş katibinin açıqlaması gözlənilməz deyildi. Ona görə ki, son zamanlar Avropada, xüsusilə də Skandinaviya ölkələrində Rusiya təhdidi ilə bağlı ciddi narahatlıq müşahidə edilməkdədir:** ”Keçmiş baş katib Rusiyanın NATO-dan Şərqə genişlənməməklə bağlı zəmanət istəməsinə münasibət bildirərək deyib ki, ”NATO-nun qapısı açıq olacaq. Və biz istəmirik ki, Rusiya Prezidenti Vladimir Putin qapıçı olsun. Düşünürəm ki, Rusiyanın hücumu Finlandiya və İsveçdə NATO-ya üzvlüklə bağlı müzakirələrə səbəb olacaq. Ona görə də Ukraynaya hücum Putinə baha başa gələcək”. Rasmussenin sözlərindən belə qənaətə gəlmək olar ki, Rusiyanın Ukraynaya hücum planı işə düşərsə, bu addım NATO-nun xeyrinə işləməyə başlayacaq. İki gün öncə isə hərbi alyansın hazırkı baş katibi təqribən eyni tipli açıqlama verərək bildirdi ki, ”İsveç və Finlandiya bir çox aspektlərdə təşkilata çox yaxındır, bu səbəbdən onlar NATO-ya qoşulmaq istəsə, bu proses çox tez həyata keçirilə bilər”. Hərbi Alyansın baş katibinin belə açıqlama verməsindən o nəticəyə gəlmək olar ki, nəinki Rusiya NATO-dan Şərqə genişlənməklə bağlı zəmanət ala biləcək, hətta bəzi dövlətlərin bloka qoşulmasını da müşahidə edəcəyik. Deyilənləri nəzərə alaraq qeyd etmək mümkündür ki, Rusiya və Qərb ölkələri arasında hansısa dialoqun müsbət nəticələnməsi inandırıcı görünmür. NATO-nun bu addımlarının arxasında dayanan əsas planlardan biri də Rusiyanı çevrələmək siyasətidir”.

**İsmayıl Qocayev**

# Media və ictimai nəzarət sahəsinə xeyli sayda insan təsadüfi "soxulub"lar

## Sui-istifadəçilər fonunda həqiqi medianın xidmətləri gözə dəymir

**Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində media və ictimai nəzarətin əhəmiyyətini vurğuladı. Dövlət başçısı eyni zamanda ictimai nəzarətin gücləndirilməsi ilə bağlı yeni gündəlik də təqdim edib. Ölkə rəhbəri vurğulayıb ki, cəmiyyətdə də elə ab-hava yaratmalıyıq ki, ictimai nəzarət güclənsin:**

”Dəfələrlə bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Mən daim bunu deyirəm, vətəndaşlara müraciət edirəm, biganə qalmayın və nəzarət edin. İctimai nəzarət bir çox məmurları bu cinayət xarakterli işlərdən çəkindirəcək. Ona görə ictimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edir”.

Media və ictimaiyyət nümayəndələri qeyd ediblər ki, ölkə rəhbərinin ictimai nəzarətin gücləndirilməsi və onun institusional formatının işlənib hazırlanması ilə bağlı söylədiyi fikirlər vətəndaş cəmiyyəti təsisatları, o cümlədən QHT-lər və media qarşısında yeni vəzifələr qoyub. Ona görə də ictimai nəzarət mexanizminin institusional hal alması üçün təkliflər üzərində düşünməyin zamanıdır.

**Media eksperti, tanınmış jurnalist Azər Həsrət ”Şərq”ə açıqlamasında bildirib ki, Prezidentin növbəti dəfə medianın və ictimai nəzarətini roluna diqqət çəkməsi təqdiredicidir. Ekspertin sözlərinə görə, normal, demokratik və insan haqlarına sayğılı ölkələrdə mediaya böyük önəm verilir:** ”Prezident bu məsələlərdə hər zaman həssas olub. Görünür, yenidən zərurət yaranıb ki, ölkə başçısı bunu növbəti dəfə ayrıca vurğulayıb. ”Mediamız ictimai nəzarət funksiyasını necə yerinə yetirir” sualına birmənalı cavab vermək qeyri-mümkündür. Çünki hamını eyni cür qiymətləndirmək olmur. Azərbaycanda həm mediada, həm ictimai nəzarətdə sui-istifadə edən ünsürlər qalmaqdadır. Ona görə də keyfiyyətli ictimai nəzarətin həyata keçirilməsi mümkünsüzdür. Media nümayəndələrinə etimad olmalıdır. Etimadın olması üçün isə bu sahədə olan şəxslər, qurumlar bəyan etdikləri amallara vicdanla xidmət etməlidirlər. Media və ictimai nəzarət sahəsinə xeyli sayda insan təsadüfi ”soxulub”lar və hərc-mərclik yaradırlar. Belə olan halda medianın keyfiyyətli ictimai nəzarət funksiyasından danışa bilmirik”.

*A.Həsrət problemin çıxış yollarından da söz açıb:* ”Qəbul edilmiş və Prezidentin təsdiqini gözləyən ”Media haqqında” qanunda müəyyən müddəalar nəzərdə tutulub. Həmin müddəalar medianın keyfiyyətinin yüksəlməsinə xidmət edir. Elə bir ortam yaratmalıyıq ki, media həqiqətən keyfiyyət dəyişikliyinə getsin. Normal media fərqlənsin və etimadı artsın. Ondan sonra media ictimai nəzarəti istənilən səviyyədə həyata keçirə bilər. Əlbəttə, ölkədə missiyasının fərqində olan, vicdanlı jurnalistikaya xidmət edən media qurumları var. Amma sui-istifadəçilər fonunda həqiqi medianın xidmətləri gözə dəymir. Medianın keyfiyyətinin yüksəlməsi və ictimai nəzarətin yeni mərhələyə daşınması zərurətdir. Dövlət başçısı iradəsini təkrar ifadə etdi. Məsələnin digər vəzifələri isə bizim kimi media nümayəndələrinin üzərindədir”.



*"Ölkədə ictimai nəzarət institutu həqiqətən özünü təsirli şəkildə göstərə bilmir və bu sahədə ciddi problem var"*

**”Bakı-xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev də bildirib ki, Prezident məmur neqativləri ilə mübarizədə tək inzibati tədbirlərin kifayət etmədiyini deyərək ictimai nəzarət məsələsini xüsusi qeyd etdi. Baş redaktor vurğulayıb ki, ölkə başçısı ictimai nəzarətin hansısa institusional formatının tətbiqinin vacib olduğunu dedi:** ”Ölkədə ictimai nəzarət institutu həqiqətən özünü təsirli şəkildə göstərə bilmir və bu sahədə ciddi problem var. Belə hiss etdim ki, Prezident ictimai nəzarətin çoxsaylı subyektlərinin arasında nisbətən medianın işində səmərəlilik göstəriciləri görür. Bəs dövlət strukturları yanında xüsusi bir coşqu ilə formalaşdırılan İctimai Şuralar nə edir? Saysız-hesabsız QHT-lərin reaksiyası hanı? İctimai iştirakçılıq haqqında qanunda nəzərdə tutulmuş digər subyektlər necə? Bu qanunun tam şəkildə işləyə bilməsinə nə mane olur? Məncə, Prezident Azərbaycanda yeni struktur - İctimai Nəzarət qurumu yaratmaq fikrindədir. Qurumun dövlət və ya geniş səlahiyyətlərə malik ictimai qurum olacağını isə hələlik demək çətindir. Ancaq ölkədə həqiqi ictimai nəzarətə böyük ehtiyac var”.

**”QHT.az” saytının baş redaktoru, ”İnformasiya Təşəbbüslərinə Dəstək” İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə də bəyan edib ki, ictimai iştirakçılığın və ictimai nəzarətin inkişafı etdirilməsi dövlət başçısının diqqətindədir. QHT rəhbərinin sözlərinə görə, Prezident İlham Əliyev ictimai nəzarətə xüsusi önəm verməklə yanaşı, bu sahəsinin inkişaf edərək davamlı və daha səmərəli forma almasını istəyir:** ”Ötən illərin təcrübəsini təhlil etdikdə bir daha uğurların və çatışmazlıqların olduğunu görə bilərik. 2014-cü il iyunun 1-dən qüvvəyə minən ”İctimai iştirakçılıq haqqında” qanunun icrasında müəyyən dövrdə problemlər yaranıb. Bu istiqamətdə yeni mərhələ 2021-ci ildən başlayıb. 2021-ci ilədək mərkəzi icra hakimiyyətləri yanında 12 ictimai şura fəaliyyət göstərib. Ötən il isə digər 8 mərkəzi icra hakimiyyəti yanında ictimai şura yaradılmaqla, ümumilikdə mərkəzi icra hakimiyyəti yanında ictimai şuraya seçkilər keçirilib. Hazırda 20 mərkəzi icra hakimiyyəti yanında ictimai şuralar fəaliyyət göstərir. İctimai şuralara keçirilən seçkilər, həmin qurumların fəaliyyətində olan müəyyən qeyri-davamlılıq və digər məqamlar ictimai şuraların vahid mərkəzdən koordinasiya olunması ehtiyacını gündəmə gətirir. Həmçinin, bəzi dövlət qurumlarının ictimai şura yarandıqdan sonra ictimai iştirakçılığın digər formalarına az diqqət göstərməsi də müşahidə olunur. İctimai nəzarətin həyata keçirilməsi üçün Prezident İlham Əliyev tərəfindən ideya kimi irəli sürülən yeni institusional formatın meydana gəlməsi çatışmazlıqların aradan qaldırılması baxımından mühüm mexanizm olacaq”.

*C.Hüseynzadə qeyd edib ki, ictimai nəzarət adı altında fərdi və korporativ maraqlar güdən bəzi qeyri-qanuni qurumların yaranması tendensiyası da mövcuddur:* ”Yeni institusional format bu mənfi tendensiyanın aradan qaldırılması üçün əhəmiyyətli rol oynaya bilər. Prezidentin çıxışından sonra Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşəbbüsü ilə bu sahədə ixtisaslaşmış QHT-lərin iştirakı ilə ”dəyirmi masa” keçirildi. Tədbirdə dövlət başçısının ictimai nəzarətin institusional formatının işlənib hazırlanması ilə bağlı ideyasını dəstəklədiyimizi bildirdik. Eyni zamanda, mümkün mexanizmlər və fəaliyyətlər haqqında fikir mübadiləsi aparıldı və səmərəli təkliflər səsləndirildi. Hesab edirəm ki, müzakirələr ekspertlər səviyyəsində davam etdirilməli, ictimai nəzarətin daha səmərəli və davamlı keçirilməsi üçün institusional format işlənilib hazırlanmalıdır”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı



# Dövlət hər bir uşağın əsas himayəçisidir

Mehriban Zeynalova: "Əgər valideyn övladlarına baxa bilmirsə, onların ehtiyaclarını qarşılamaq iqtidarında deyilsə, uşaqları dövlətə əmanət etməlidir"

**Hər bir Azərbaycan vətəndaşının əsas himayədarı dövlətdir. Vətəndaş hüquqlarının qorunması dövlət siyasətinin prioritetlərinə daxildir və bu amil özünü uşaqların müdafiəsində də göstərir. Son illərdə xüsusi diqqət ayrılan sahələrdən biri azyaşlıların sağlamlığı, fiziki inkişafıdır.**

Uşaqların sağlam böyüməsi, cəmiyyətə yararlı vətəndaş olmaları üçün uşaq müəssisələrinin fəaliyyətinə son illərdə nəzarət daha da artırılıb. Eyni zamanda valideyn himayəsindən məhrum uşaqlar, həmçinin şəhid, müharibə iştirakçılarının övladları da dövlət qayğısı ilə əhatə olunur. Uşaqlarla bağlı yaşanan hər hansı hadisəyə operativ reaksiya verilir, aidiyyəti dövlət qurumları məsələni nəzarətə götürür, problemin həllinə çalışırlar. Bir neçə gün əvvəl sosial şəbəkələrdə Şamaxının İkinci Çaylı kəndində baxımsız vəziyyətdə yaşayan azyaşlılarla bağlı video yayıldıqdan sonra məsələ dövlət orqanları tərəfindən nəzarətə götürüldü. DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupunun məlumatında qeyd olunurdu ki, yayılan videogörüntülərlə əlaqədar Şamaxı Rayon İcra Hakimiyyəti, Polis Şöbəsi, eləcə də digər aidiyyəti qurumların əməkdaşları Şamaxı rayonu İkinci Çaylı kəndində uşaqların baxımsız vəziyyətdə yaşadıqları ünvanda olub, vəziyyətlə yerində maraqlanıblar. Qeyd edilib ki, orada yaşayan beş azyaşlıya bağlı müvafiq qərar qəbul edilənədək onlar rayon ərazisində başqa bir şəraiti ünvana yerləşdirilib. Sonra isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətləri Agentliyi hadisə ilə bağlı məlumat açıqladı. Agentliyin mətbuat xidmətinin rəhbəri Murad Haşımov bildirdi ki, Şamaxının İkinci Çaylı kəndində 5 azyaşlı uşağın baxımsız vəziyyətdə yaşadıqları barədə yayılan məlumat araşdırılıb. Araşdırma nəticəsində uşaqların məişət zorakılığı ilə üzləşdiyi müəyyən edilib. Bu səbəbdən də uşaqlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qrupları olan şəxslər üçün nəzərdə tutulan sığınacaq və sosial reabilitasiya müəssisəsinə yerləşdirilməsi qərara alınıb. M.Haşımov qeyd edib ki, uşaqlar məişət zorakılığından zərərçəkənlərlə bağlı xüsusi şöbədə reabilitasiya prosesi keçəcəklər. Prosesin davamında uşaqların reabilitasiyasının nəticəsinə uyğun olaraq onların rifahı üçün aidiyyəti tədbirlər görülməsi barədə qərar qəbul ediləcək. Uşaqlara qarşı valideynləri tərəfindən zorakılıq olduqda onların valideynlikdən məhrum edilməsi ilə bağlı məhkəmədə iddia qaldırılır. Bunu isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin keçirdiyi brifinqdə komitənin Hüquq şöbəsinin müdiri Taliyə İbrahimova bildirib. Şöbə müdiri vurğulayıb ki, valideyn hətta inzibati və cinayət məsuliyyətinə də cəlb oluna bilər: "Hər bir hərəkətdə valideyn uşağın mənafeyini hər şeydən üstün tutmalıdır. Üstün tutmadığı halda valideynlik hüququndan sui-istifadə halı kimi qeydə alına və qeyyumluq işinə baxıla bilər. Valideynlər uşaqlarına qarşı tərbiyə məqsədilə zorakılıq hallarına yol verməməlidirlər. Bu cür hallar uşaqlarda travma yaradır və bunun təsirləri uzun illər onlarda qalır. "Mənim övladımdır, özüm bilərəm", deyib, zorakılığa haqq qazandırmaq yolverilməzdir".

**Məlum hadisə ilə balı "Şərq"ə danışan "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova qeyd etdi ki, ölkədə uşaq hüquqlarının təmin edilməsinə nəzarət dövlət tərəfindən həyata keçirilir:**

- İstər uşaq müəssisəsinin rəhbərliyi olsun, istərsə də uşağın doğma ataanası, heç kim uşaqlarla zorakı davranmamalı, onlara işgəncə verməməlidir. Təəssüf ki, son zamanlar orta məktəblərdə, uşaq bağçalarında xoşagəlməz hallar yaşanır. Eləcə də ailələrdə uşaqlara qarşı zorakılıq faktları baş verir. Dövlət hər bir uşağın əsas himayəçisidir. Ölkədə internat məktəblər, uşaq evləri var. Əgər valideyn övladlarına baxa bilmirsə, onların ehtiyaclarını qarşılamaq iqtidarında deyilsə, uşaqları dövlətə əmanət etməlidir. Dövlət bütün hallarda hər bir uşağa sahib çıxır. Daha uşaqları baxımsız vəziyyətdə qoyub harasa getmək nəyə lazımdır?!.

**"Uşaqlarla bağlı istənilən sahədə çalışan hər bir şəxs bu məsuliyyəti anlamalı, öz üzərinə düşən vətəndaşlıq vəzifələrini peşəkarlıqla və layiqincə yerinə yetirməlidir"**

**M.Zeynalova qeyd etdi ki, belə hallar baş verdikdə baxımsız uşaqlar xüsusi sığınacaqlara yerləşdirilir:**

- Bu sığınacaqlarda hər bir şərait var. Dövlət qidayla, geyimlə təmin edir. Əgər məktəb yaşlı uşaqlardırsa, təhsillərini davam etdirmələri də dövlət tərəfindən təmin edilir. Onların özlərini inkişaf etdirməsi və inklüziv cəmiyyətdə böyüməsi üçün lazımi tədbirlər görülür. Azyaşlılar da həmçinin, qayğı ilə əhatə olunur. Valideynlər bilməlidir ki, uşaqlara qarşı zorakılıq cinayət məsuliyyətidir. Və ana və ya ata olmaları onları bu məsuliyyətdən azad etməyəcək. Dövlət hər bir uşağı himayə etmək gücündədir. Ölkəmizə, sağlam, mənəvi cəhətdən zəngin vətəndaşlar lazımdır. Bu istiqamətdə də dövlət siyasəti yürüdülür. Uşaqlarla bağlı istənilən sahədə çalışan hər bir şəxs bu məsuliyyəti anlamalı, öz üzərinə düşən vətəndaşlıq vəzifələrini peşəkarlıqla və layiqincə yerinə yetirməlidir.

*Bir faktı qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün nəzərdə tutulan sığınacaq və sosial reabilitasiya müəssisəsində hazırda 113 şəxsə sosial xidmət göstərilir. Onlardan 59-u kişi, 54-ü qadındır. Müəssisədə müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraiti mövcuddur. Burada müəyyən yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər, baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar, görmə qabiliyyəti məhdudluğu olan şəxslər və məişət zorakılığından zərər çəkmiş şəxslər üçün sosial reabilitasiya şöbələri fəaliyyət göstərir. Şöbələrə qəbul olunan şəxslər stasionar şəraitdə sosial xidmətlərlə təmin olunur və onların normal həyat tərzinə qayıdışı, sosial adaptasiyası və reabilitasiyası işləri aparılır.*

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Fazil bəy iradlarında haqlıdır"

Seymur Verdizadə: "Əgər bütün gənc kadrlar yerində olsaydı, ölkədə bu qədər problem olmazdı"



**Millət vəkili Fazil Mustafa Azərbaycanda son dövrlərdə yeni təyinat alan bəzi kadrlardan, ictimai nəzarətdən və korrupsiyadan danışıb. Deputat sosial şəbəkə profilində paylaşdığı statusda bildirib ki, gənc adı ilə təyin olunanların da xeyli hissəsi köhnələrin yolunu izləyirlər.**

Parlament üzvünün sözlərinə görə, sadəcə görünüş olaraq "rüşvət almıram" deyənlər başqa elə yollar icad edirlər ki, vətəndaş rüşvətin aşkar hökmranlıq etdiyi dövrlərin nostalgiyasını yaşamış olur: "Hər nə qədər dürlü-dürlü qanunlar qəbul ediriksə, ictimai nəzarəti təmin etmək mümkün olmur. Ölkədə qanunüstü şəxslərin sayı normadan artıqdır. İstər iqtisadi, istər də dövlət qulluğunda imtiyazlı şəxslərin davranışları digər insanların də əxlaqını dəyişir. "Niyə ona olar, mənə olmaz" mühakiməsi ilə davranmağa meyillənənlər çoxalır. Kiminsə həbsi, ölümü başqasına görk olsaydı, o halda bəşəriyyətdə bundan sonra ədalətsizlik yerli-dibli qalmazdı. İdarəetmədə səlahiyyətlər bir-birinə qarışanda kimdənsə konkret məsuliyyət də tələb etmək olmur". F.Mustafa əlavə edib ki, icra orqanları ilə yerli özünüidarəetmə orqanlarının sərhədləri Azərbaycan-Ermənistan sərhədlərindəki vəziyyətdən daha dolaşıqdır: "Biz dövlət sərhədini delimitasiya ertməzdən öncə, dövlətin içindəki qurumların və şəxslərin sərhədlərinin delimitasiyasını aparmalıyıq".

***"TƏBİB-in sabiq rəhbəri Ramin Bayramlı da gənc kadr idi. Amma Oqtay Şirəliyevin ölənlərinə rəhmət oxutdurdu. Məncə, ingilis dilini deyil, xalqın dilini bilən adamlara vəzifə verilməlidir"***

**Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, "yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə "Şərq"ə deyib ki, o, idarəetmədə gənc kadrlara üstünlük verilməsinin tərəfdarıdır. JAM rəhbərinin sözlərinə görə, yaxşı təhsil almış, xalqını, Vətənini sevən, rüşvət və korrupsiyaya bulaşmamış gəncləri irəli çəkmək, onlara etimad göstərmək lazımdır:** "Bu sualı əvvəllər də səsləndirmişəm. Necə olur ki, 18 yaşlı gəncə Vətəni qorumağı etibar edirik, amma kiçik bir vəzifəni etibar etmirik? Gənc kadrlara etimad göstərməkdən qorxmamalıyıq. Məsələ ondadır ki, biz uzun illər "köhnə qvardiya"nın rəhbərliyi altında yaşadıq və işlədik. Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin başında dayandığı bu komanda Azərbaycanın heç bir problemini həll etmədi. Əksinə, problemlər üst-üstə qalaqlandı, sələflərindən xələflərinə ötürüldü. Əgər indiyə kimi 7 icra başçısı həbs olunubsa, bu, ilk növbədə "köhnə qvardiya"nın "mərifətidir". Çünki onlar rüşvətsiz yaşaya, işləyə bilmirlər. Əlbəttə, köhnələrin hamısının pis, yenilərin ideal olduğunu iddia etmək doğru olmazdı. Rüşvət alıb-almamaq əxlaq məsələsidir, bunun yaşla-başla heç bir əlaqəsi yoxdur. Fazil bəy iradlarında haqsız deyil, əgər bütün gənc kadrlar yerində olsaydı, ölkədə bu qədər problem olmazdı. Görünür, deputat olduğu üçün onun bu barədə daha çox məlumatı var. TƏBİB-in sabiq rəhbəri Ramin Bayramlı da gənc kadr idi. Amma Oqtay Şirəliyevin ölənlərinə rəhmət oxutdurdu. Kadr seçimi həssas məsələdir, yüz ölçüb-bir biçmək lazımdır. Bəzən deyirlər ki, filan posta təyinat alan gənc Amerikada oxuyub, ingilis dilini bilir və s. Məncə, ingilis dilini deyil, xalqın dilini bilən adamlara vəzifə verilməlidir".

**İsmayıl Qocayev**



# "Şahlar Əsgərov repetitorluqla bağlı problemi vaxtında qaldırmalı idi"

Elçin Əfəndi: "O, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri olduğu dövr ərzində bu məsələni niyə işıqlandırmırdı?"

**"Orta məktəblərdə bu gün əsas problem repetitorluqdur. Bu fenomen təhsildə çoxlu fəsadlar törədir. Repetitorluq fərdin təhsilidir, cəmiyyətin inkişafına mənfi təsir edir". Bu fikirləri Əməkdar elm xadimi, professor Şahlar Əsgərov deyib.**

**Professor bildirib ki, repetitorluq dövlətin təhsil siyasətini aparmağa əngəldir. Repetitorluq orta məktəblərin yuxarı siniflərini iflic edir. Repetitorluq həmçinin tərbiyəyə və vətənpərvərliyə imkan vermir. Biliyin mənimsəməsinə yox, əzbərçiliyə xidmət edir. Bu imkandan istifadə edə bilməyən valideynlər dövlətdən narazı qalırlar:**

"Repetitorluq təhsil sistemini böyük bir rüşvət və korrupsiya şəbəkəsinə çevirir. Kölgə iqtisadiyyatını alovlandırır".

**Təhsil üzrə ekspert Elçin Əfəndi isə "Şərq"ə açıqlamasında bildirib ki, Şahlar Əsgərov bu məsələ haqqında danışmaqda çox gecikib:**

"O, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri olduğu dövr ərzində bu məsələni niyə işıqlandırmırdı? Halbuki, biz dəfələrlə bu barədə demişdik. Hörmətli Şahlar Əsgərov ilk olaraq bu suala cavab verməlidir. Bu problemləri vaxtında qaldırmaq lazım idi. İndi orada təmsil olunmadığı halda kənardan bu fikirləri səsləndirməyə nə vadar edir. Belə çıxır ki, nazirlik vaxtikən müəyyən məsələlərin işıqlandırılmasına veto qoyduğu üçün danışa bilmirdi?".

**Ekspert eyni zamanda repetitorluqla bağlı fikirlərə də münasibət bildirib:**

"Problem ondan ibarətdir ki, valideynlər 1-ci sinifdən 11-ci sinfə qədər övladlarının təhsilinə ayda 200-400 manat xərcləyirlər. Bu, ailə büdcəsinə dəymiş ciddi ziyandır. Dövlət təhsil müəssisələrində vətəndaşlara pulsuz təhsil verilməlidir. Bu, hər bir vətəndaşın konstitusiya ilə təmin olunan hüququdur. Ölkədə 4432 orta ümumtəhsil müəssisəsi və bununla yanaşı özəl məktəblər var. Kimin imkanı varsa gedib özəl məktəblərdə övladını oxuda bilər. Amma bu ölkənin hər bir vətəndaşı imkanlı deyil. Buna görə də Təhsil Nazirliyi və müvafiq aidiyyati qurumlar çalışmalıdırlar ki, təhsil müəssisələrində doğru-düzgün təhsil verilsin. Bu gün orta ümumtəhsil müəssisələrində çalışan bəzi müəllimlər var ki, onlar müəyyənləşən iş vaxtını - 17:00 gözləmir, 13:00-da sinfi tərk edib, gedib repetitorluq fəaliyyəti ilə məşğul olurlar. Çünki onların orta məktəbdə aldığı əməkhaqqı qənaətbəxş deyil. Və beləcə bu proses geniş vüsət alır. Bu gün biz buna göz yumuruqsa, əlbəttə ki, bu, rüşvətə yol açacaq. Biz uşaqlarımızı pullu təhsilə öyrəşdiyimiz üçün onlar böyüdükdə məmur və ya nazir olarsa onun da rüşvətə meyli yaranacaq. 4432 məktəbdən heç olmasa müəyyən hissəsini ödənişli etsinlər. Valideynlər də bilsin ki, övladları onların pul ödəməyinin qarşılığında mükəmməl təhsil ala bilirlər. Bundan sonra əlavə repetitora da ehtiyac qalmaz. Düşünün, Yasamal rayonundan çıxan uşaq Əhmədliyə gedir, oradan da qayıdır evinə, yenidən digər repetitorun yanına gedir. Bu zaman aylıq ödənişdən əlavə onun gediş-gəlişi üçün müəyyən məbləğ xərclənir. Bunun yerinə valideynlər illik olaraq o pulu ödəyər məktəbə, məktəblərdə müəllimlər kifayət qədər əməkhaqqı verər. Yekunda da valideyn məktəbdən tələb edər ki, mənim övladım ali məktəbə qəbul ola biləcək balı yığsın. Amma biz məktəblərdə normal şəkildə təhsilə imkan yaratmırıq və onlar sadəcə attestat vermək funksiyasını daşıyır. Şagird 11 il ərzində məktəbə getməsə belə sonda imtahan verib attestatını alıb, çıxıb gedə bilər. Görün, nə qədər bərbad vəziyyətdir. Məktəb təhsil vermədiyi üçün şagirdlər də digər vasitələrə üz tutur".

**Sənan İsmayıl**

# Cinayət törədənlərə məhkəmələr tərəfindən cəza müəyyən edilib

Könül Nurullayeva: "Human Rights Watch"-un illik hesabatının heç bir əsası yoxdur"



**"Human Rights Watch" təşkilatının 2021-ci il üzrə hesabatında iddia edilir ki, guya müharibə zamanı Ermənistanda 71, Azərbaycanda isə 54 məktəb dağıdılıb. Məsələ burasındadır ki, müharibə başa çatdıqdan sonra Azərbaycanın dəvəti ilə bölgəyə səfər edən təşkilat nümayəndələri Ermənistanın müharibə cinayətlərinin, mülki infrastrukturun dağıdıldığının şahidi olublar".**

"Şərq" xəbər verir ki, bu barədə millət vəkili Könül Nurullayeva bildirib. Xanım parlamentari qeyd edib ki, hətta bu səfərdən sonra təşkilat tərəfindən "Ermənistanın Azərbaycana qarşı qanunsuz raket zərbələri" adlı məruzə də hazırlandı: "Həmin sənəddə də qeyd olundu ki, "noyabr ayında hadisə yerlərini araşdırmış HRW ekspertləri Ermənistan silahlı qüvvələrinin ballistik raket və iri kalibrli artilleriya silahlarından istifadə etdiyini göstərən 11 insidenti sənədləşdiriblər. Ən azı dörd ayrı hadisə zamanı mülki şəxslərin və ya mülki obyektlərin raket hücumuna məruz qaldığı aşkarlanıb". Həmçinin vurğulanırdı ki, Ermənistanın arsenalında "Toçka" və "İsgəndər" ballistik raketləri, "Smerç" və Çin istehsalı olan "WM-80" yaylım atəşi sistemləri var. Ermənistan ordusu və Dağlıq Qarabağdakı erməni hərbi qüvvələri altı həftəlik müharibə dövründə Azərbaycanda six yaşayış məntəqələrinə dəfələrlə klastr bombaları atıblar. Təəssüf doğuran budur ki, həmin hesabatda əks olunan səhih mlumatlar illik hesabata daxil edilməyib.

Məsələ burasındadır ki, müharibə Ermənistan ərazisində baş verməyib. Bu mənada Ermənistanda 71 məktəbin hansı səbəbdən dağılması sualları yaradır. Aydın görünür ki, bu, ya təşkilatın ermənipərəst ekspertlərinin fantaziyasıdır, ya da erməni mənbələrinin şişirdilmiş rəqəmlərdən ibarət məlumatlarından götürülüb.

Digər bir qərəz Azərbaycan ordusunun guya "erməni əsirlərini fiziki zorakılığa və alçaldıcı hərəkətlərə məruz qoyması" ilə bağlıdır. Belə ki, hesabatda ua BMT və AŞPA-nın əsirlərlə bağlı Azərbaycana müraciət etməsinə istinad olunur. Halbuki həm BMT, həm də AŞPA hər iki ölkəni müharibənin fəsadlarını aradan qaldırmağa çağırıb. Ən əsas məsələ isə - Azərbaycan hərbi əsirləri hətta Ermənistandan daha əvvəl geri qaytarıb. Müharibədən sonra saxlanılanlar isə təbii ki, hərbi əsirlər hesab olunmur. Onlar birmənalı şəkildə terroçudurlar. Hətta cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib. Bu mənada HRW-un illik hesabatının heç bir əsası yoxdur".

**Aygün**

# "Sonuncu şam yeməyi"ni həzm etməyənlər cahillərdir

## Elşad Miri: "Əlixan Rəcəbova çəkinmədən, hansısa din xadiminin iradlarına əhəmiyyət vermədən xurafatı işıqlandırmağa davam etməsini arzu edirəm"



**Rejissor və aktyor Əlixan Rəcəbovun ideya müəllifi olduğu "Sonuncu şam yeməyi" filmi müzakirələrə səbəb olub. Bir qrup inanclı insan iddia edib ki, filmdə əks olunan yas mərasimində dinimiz məqsədli şəkildə gülüş obyektinə çevrilib.**

Onların fikrincə, ekran işi dini adət-ənənələrimizi aşağılayıb, xurafatı deyil, birbaşa şəriəti hədəf alıb. Digərləri isə satiranın bir qədər aşırı formasının seçildiyi qənaətinə gəliblər. Qeyd edək ki, filmdə yer alan simalar kifayət qədər populyar və kino arenasında sözünü demiş şəxslərdir. Onlar arasında Şamil Süleymanov, Taleh Yüzbəyov, Bəhram Bağırzadə, Azər Aydəmir və digər tanınmışlar var. Ötən gün ilahiyyatçı Hacı Şahin Həsənli kino ilə bağlı narazılıqlara münasibət bildirərkən filmin yaradıcıları ilə görüşdüyünü və fikir mübadiləsi apardığını deyib. İlahiyyatçının sözlərinə görə, yaradıcı insanlarla, açıq düşüncəli gənclərlə ünsiyyət istənilən halda faydalıdır: "Əlixan Rəcəbov və gənc həmkarı İbrahim Heydərov ilə görüşümüzü faydalı hesab edirəm. Fikir mübadiləsi zamanı ortaq mövqeyimiz bu oldu ki, xurafatla mübarizə aparmaq lazımdır". Hacı Şahin Həsənli əlavə edib ki, insanların mənəvi mövzularda diqqətli və həssas olması təbii və başadüşüləndir.

**"Sonuncu şam yeməyi" filmi ilə bağlı cəmiyyətdə gedən müzakirələrə ilahiyyatçı-alim Elşad Miri də münasibətini açıqlayıb. İlahiyyatçı feysbuk hesabında bunları yazıb:** "Aktyor Əlixan Rəcəbovun "Sonuncu şam yeməyi" filminin islama qarşı olduğunu iddia ediblər. Yaxşı ki, xristianlar bunu Yuhanna İncilində təsvir edilən İsanın sonuncu şam yeməyi ilə əlaqələndirib bum qaldırmayıblar. Yaxşı ki, rəssamlar da Leonardo da Vinçinin "Sonuncu şam yeməyi" ilə əlaqə qurub çəkdikləri rəsm tablolarını yandırmayıblar. Lakin islam "mücahidləri" Rəcəbovun "Sonuncu şam yeməyi" filminə qarşı çıxıblar. Etirazlarını islamla əlaqəli düzgün film çəkərək nümayiş etdiriblər desəm, yalan olar. Çünki bu cür aktyorları və senaristləri yoxdur. Onlar dindar yox, dini dar olanlardır. Dinin yox, mövhumatın, xurafatın təmsilçiləridirlər. Əlixan Rəcəbovu tanımasam da, sosial şəbəkələrdəki filmlərinə baxmışam. İnsanı vicdanıyla üzləşdirən məqamlarının çox təsiredici olduğuna şahid olmuşam. Lakin vicdanın nə olduğunu bilməyənlərin və onların nümayəndələrinin inhisarçılığına maarifləndirici sehirli çubuqla müdaxilə etməsinin etirazlara səbəb olacağı gözlənilən idi. Filmdə uzun illərdir insanların cavab axtardığı, lakin mənasını və məntiqini başa düşmədikləri bir çox məsələ kinayəli tərzdə nümayiş etdirilir".

**E.Mirinin sözlərinə görə, aktyorun etirazlara cavab yazması cəmiyyətin dindar anlayışının intellektual "səviyyə"sinin üzərinə düşən asteroiddir:** "Aktyorun "arzulayıram ki, heç bir müəllif sonra öz filmini izah etməyə məcbur olmasın" sözləri əslində, çox ağır və tikanlıdır. Filmin mistikasını, məğzini açdırmaq yaradıcı insana ağır zərbədir. Sekulyarlaşan dünyamızda, kapitalizm nəzərindən yanaşılan münasibətlərdə aktyorun ölümü xatırlatması və bunu da müxtəlif çalarla göstərməsi möhtəşəm yanaşmadır. Mollalığı müasirləşdirməsi, fars ləhcəsini ruslaşdırıb təqdim etməsi alqışlanacaq məqamlardır. Əlixan Rəcəbova çəkinmədən, hansısa din xadiminin iradlarına əhəmiyyət vermədən cəmiyyətdəki bu və digər mövhumatı, xurafatı işıqlandırmağa davam etməsini arzu edirəm. Bilsin ki, heç islamda din xadimi anlayışı, peşəsi yoxdur. Şeyx nəsrullahların qarşısında kefli isgəndərlər kimi əzilərək tərki-dünya olmaq deyil, Makedoniyalı İsgəndər kimi cəsarətli olmaq lazımdır".

**İsmayıl Qocayev**

# "Xalq nəyi sevir, onu oxuyuram"

## Şəbnəm Tovuzlu: "Mən hər zaman efirdə olacam"



**"Bu gün biz ifaçılar xalqa nə üçün lazımıq? Biz xalqın toylarında, xeyir işlərində iştirak edirik". "Şərq"in məlumatına görə, bu sözləri müğənni Şəbnəm Tovuzlu deyib. "Həmin Zaur" verilişində qonaq olan Ş.Tovuzlu deyib ki, Azərbaycanda toy biznesi var:**

"Konsertlə çox az məbləğ qazana bilirik. Ay ərzində 10-15 gün el şənliyində oluruqsa, bu, xalqın seçimidir. Getdiyim mərasimlərə fikir verirəm. Məni ev yiyəsi, nənə, baba qarşılayır. Onlar deyirlər, "Şəbnəm, sən bizim arzumuzsan, ona görə dəvət etmişik". Gənclər, bəylə gəlin yaxınlaşıb nəsə demir, çox nadir hallarda baş verir.

Qoy, xalq mahnılarımızı, muğamımızı düzgün şəkildə ötürək. Xalq nəyi sevir, onu oxuyuram. Xalq mahnılarını gözəl ifa edirəm. Qərar çıxsa, bu tip ifaçılar efirə buraxılmayacaq. Xalq mahnılarını ifa edəcək tərzdə, mən Şəbnəm Tovuzlu olaraq, hər zaman səhnədə olacağam".

**Aygün Tahir**

**Elan**

Səfərov Azər Kamal oğluna məxsus veteran vəsiqəsi, veteran pul kartı, təsərrüfat ilə əlaqədar olaraq Kapital Bankdan pul kartı, şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İsgəndərov Orxan Tahir oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Tovuz rayonu Aşıq Əsəd Rzayev adına Musiqi məktəbi tərəfindən Ələkbərli Zəhra Firudin qızının adına 25.09.2017-ci il tarixində verilmiş R 6981 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# Axın var...

## Axır ki, bir xoş xəbər aldıq

**Azərbaycanda teatr ənənələrinin tarixi Mirzə Fətəli Axundovun 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan "Lənkəran xanının vəziri" və "Hacı Qara" tamaşalarından başlanır.**

Bununla peşəkar Milli teatrımızın, başqa sözlə, Akademik Milli Dram Teatrının bünövrəsi qoyuldu. Ancaq zamanla müasir və texnoloji dünyada teatra maraq azalmağa başlayıb. Ölkəmizdə də son zamanlara qədər teatrlar tamaşaçı sarıdan əziyyət çəkirdi. İndi isə vəziyyət bir qədər dəyişib. Xüsusən son günlərdə teatr salonlarında boş yer tapmaq müşkül hala gəlib. Bəs necə oldu ki, insanlar birdən-birə teatrlara üz tutmağa başladılar?



***Teatr salonlarında boş yer tapmaq müşkül hala gəlib***

**Məsələ ilə bağlı "Şərq"ə danışan Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilovun sözlərinə görə, indiki gənc nəsil köhnə ənənələrə maraq göstərməyə başlayıb:**

"Azərbaycanda teatrlarımız tamaşaçı baxımından heç vaxt şikayətçi olmayıb. Düzdür, Rus Dram Teatrına nisbətən Kukla Teatrı və Musiqili Komediya Teatrı və Opera və Balet Teatrına nisbətən digər teatrlarımız, o cümlədən Akademik və Dram teatrlarımızın tamaşaçısı az olsa da ancaq istənilən halda olub.

Son bir neçə ildə pandemiya, müharibə və onun fəsadları teatra marağı zəiflədib. Teatrlarımız uzun müddət bağlı qaldılar. Eyni zamanda peşəkar teatrlarla yanaşı müxtəlif xalq teatrları, hətta son illər özəl teatrların tamaşaçıları səhnədən uzaq düşsələr də, yeni və köhnə tamaşalara baxa bilməsələr də içlərində bir teatr həvəsi var idi. Onlar bu dönəmdə sosial media vasitəsilə teatr xəbərlərilə tanış olmaq, eyni zamanda virtual variantda da olsa köhnə teatrların tamaşalarına baxmağa meyil göstərirdilər. Əslində teatra marağı televiziya verilişləri, seriallar, filmlər, sosial şəbəkə, internet məhv etsə də ancaq sona qədər məhv olmayıb. Az da olsa teatr həvəskarları hələ də qalıblar. Düzdür, bunların əksəriyyəti yaşlı nəslin nümayəndələridir. Amma hər halda yenə də qalıblar və onlar hələ də teatrlara gedirlər.

İndiki yeni nəsil də köhnə ənənələrə maraq göstərməyə başlayıb. Son zamanlarda Türkiyədə teatrlara və xüsusən də, komik teatrlara maraq artıb və bu, öz təsirini Azərbaycan teatrlarına da göstərib. Eyni zamanda bizdə əski zamanlardan qalan teatral ictimaiyyət var. Əsasən rusdilli məkanda bu, indi də qalır.

Bu qayıdış da məhz bununla, həmin nostalji sənət hissləri ilə bağlıdır. Bir tərəfdən də insanlar sosiallaşmaq üçün yerlər axtarırlar.

Üstəlik indi gəzməli yerlər azalıb, ticarət mərkəzləri bahalıdır, oradan çıxanda görürsən ki, 50-60 manat itirmisən. Amma teatr belə deyil, orada ilahi bir sakitlik var. 5-10 manat verib bilet alırsınız və siz orada 3 saat həm estetik cəhətən zövq alırsınız, həm də ruhi cəhətdən istirahət edirsiniz, yaxınlarınızla birlikdə mədəni insanların ətrafında olursunuz. Ona görə də insanların belə marağı olması normal qarşılanmalıdır. Azərbaycanda təəssüf ki, alternativ teatr inkişaf etməyib. Tiflis, Moskva kimi şəhərlərdə bu, daha çox inkişaf edib. Yəni teatr da bir formatdır. Onun vasitəsilə zamanın ismarıclarını həm zamandaşlarına, həm də gələcəyə ötürmək olur. Bizim insanlar mütləq teatrlardan daha çox yararlanmalı və istifadə etməlidirlər".

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**



# Pandemiya rahatlığımızı da alt-üst etdi

## İndi yuxumuzu nizama salmağın zamanıdır

**Pandemiya prosesində hər şey dəyişdiyindən yuxu rejimimiz də məhv oldu.**

Gecələr bitmirdi, səhərə kimi seriallara baxırdıq, səhərdən axşama tənbəllik edib yatırdıq. Hazırda normallaşma mərhələsindəyik. Biz də yuxu rejimimizi bərpa etməliyik. Beləliklə, yuxu rejimini təmin etmək üçün nə edə bilərik?

"Şərq" xarici mediaya istinadən xəbər verir: Yataq yalnız yatmaq üçündür. Yataqda seriala baxmayın, başqa işlərlə məşğul olmayın. Sadəcə yatın. Yatmazdan əvvəl yemək yeməyin. Bir şey yemək istəyirsinizsə, qatıq yeyin və ya süd için. Gün ərzində qısamüddətli yatmağın faydalı olduğu bilinsə də bunun zərəri var. Əks halda sonrakı mərhələdə yuxu rejiminizi qurmaq çətinləşəcək. Yatmaq vaxtı gəldikdə otağın qaranlıq olmasına diqqət edin. Qaranlıq yerlərdə yuxu daha rahatdır. Bunun üçün qara fon pərdəsindən istifadə edə bilərsiniz. Belə ki, melatonin hormonu qaranlıqda daha yaxşı ifraz olunur. Şəkərli qidalardan və artıq karbohidratlardan uzaq durun. Şəkər və zərif karbohidratlar yemək gecələr oyanıqlığa səbəb ola bilər və yuxunun dərin, bərpaedici mərhələlərindən yayındıra bilər. Ən çətini hər gün eyni vaxtda yatıb oyanmaqdır. Ancaq bu, ən vacib addımlardan biridir. Çünki sabitlik lazımdır. Bunu təcrübə etdikdə ilk bir neçə gün yata bilməmək normaldır. Onsuz da yata bilmirsən deyə yataqdan qalxma. Yuxu probleminiz xroniki xarakter daşıyırsa, mütəxəssisə müraciət etməkdən çəkinməyin. Çünki yuxu insanın həyatını davam etdirməsi üçün çox vacib bir rejimdir. Yuxusuzluq piylənmə, yüksək xolesterol, yüksək qan təzyiqi, yüksək qan şəkəri və digər sağlamlıq problemlərinə səbəb ola bilər.

**Günəş Mərd**

# 2 dəqiqə bəs edir

## Tənbəllik xəstəliyini dəf etmək mümkündür

**Tənbəlliyi və ertələməyi məğlub etmək üçün iki dəqiqə kifayətdir! "Şərq" "HaberGlobal"a istinadən xəbər verir ki, çağımızın ən ciddi narahatlığından biri ertələmə xəstəliyi və ümumi olaraq tənbəllik halıdır.**



Bunun bir çox səbəbi ola bilər. Amma bu problemi dəf etməyin müxtəlif yolları mövcuddur. Bunlardan biri "iki dəqiqə" qaydasıdır. Maraqlıdır, "iki dəqiqə" qaydası necə olur?

Bəlkə də bir çoxumuzda ertələmə xəstəliyi var və ondan xəbərsizik. Bu xəstəliyin əsasında nə dayanır?

Heç tarixi 15 gün əvvəl bəlli olan imtahana bir gecə əvvəl hazırlaşdınızmı? Yaxud tarixi bir ay sonraya müəyyənləşmiş hesabatı gündən-günə saxlayıb, son həftə yazmağa qərar verib, daha sonra Netflix, Yutub, İnstaqram səbəbindən ertələyib, son gecə yazmaq məcburiyyətində qaldınızmı?

Ertələmə xəstəliyi, ya da tənbəlliyin üstəsindən gəlmək çətin ola bilər. Amma həll olunmayacaq problemlər deyil. "İki dəqiqə" strategiyası həm işi sonraya saxlamaqdan qurtulmaq, həm də yaxşı vərdişlərə bağlı qalmaq üçün nəzərdə tutulub.

Qayda sadədir: Yeni işə başlamaq qətiyyən iki dəqiqədən çox çəkməməlidir. Bu strategiyanı müəllif və məhsuldarlıq üzrə məsləhətçi "David Allen" yaradıb.

Həmin qaydaya görə, hər hansı bir vərdişin iki dəqiqəlik bir versiyaya endirilə biləcəyini görəcəksiniz:

Özünüzə dediyiniz "Hər axşam yatmazdan əvvəl bir kitab oxuyun" tövsiyəsini "Hər axşam yatmazdan əvvəl bir kitabdan iki səhifə oxuyun"a qədər azaltmaq olar. "30 dəqiqə yoqa ilə məşğul olun", "Yoqa döşəyinizi çıxarın", "Dərs oxumaq əvəzinə" "Qeydləri açın...", "Bütün paltarları qatlayın..." əvəzinə "Bir cüt corab qatlayın...".

*Bunlar ilk zamanlar insana qəribə gələ bilər. Başlamaq üçün mümkün qədər asan bir şey etmək sizi daha məhsuldar bir yola aparacaq.*

Sadəcə iki dəqiqə qaçın, ispan dilini öyrənin, meditasiya edin və ya kitab oxuyun. Cəmi 120 saniyə. Qoy, bu, başlanğıc strategiyanız deyil, bütün vərdişiniz olsun. Əgər siz hər gün iki dəqiqəlik də olsa idman edirsinizsə, yeni şəxsiyyətinizə can atırsınız. Nadir hallarda bu şəkildə dəyişiklik etməyi düşünürük. Lakin 30 saniyəlik təkan, çömbəlmə, oturaq, lunge hərəkətləri etmək heç məşq etməməkdən yaxşıdır. İki dəqiqə gitara çalmaq hərəkətsizlikdən səmərəlidir. İki dəqiqə oxumaq, heç kitab oxumamaqdan faydalıdır. Heç bir şey etməməkdənsə, ümid etdiyinizdən daha azını etmək daha gözəldir.

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 183



## Astarada maraqlı toy...

### Bəylə gəlinin qarlı havada toy karvanı gündəm oldu

**Sosial şəbəkələrdə Astaranın Hamoşam kəndində çəkilən bəy-gəlin fotosu diqqət çəkib.**

Fotoda Hamoşam kəndindən olan Motlayataq kəndinə gəlin köçən xanımın qarlı havada bəy və qohumları ilə birgə piyada getdiyi əks olunub.

Sözügedən foto izləyicilər tərəfindən maraqla qarşılanıb.

## Gec bilinən, gizli gedən xəstəlik

### Çay içərkən siqaret çəkmək xərçəng yaradır



**Bəzi xərçəng növlərinin siqaret çayla birlikdə istifadə edildiyi zaman yarandığı açıqlanıb.**

Medicina.az xəbər verir ki, araşdırmalar zamanı bunun qida borusu xərçənginə səbəb ola biləcəyi məlum olub.

Daxili xəstəliklər mütəxəssisi, qastreontoloq və hepatoloq Yüksel Gümürdülünün sözlərinə görə, dünyada xərçəng növləri arasında 6-cı yerdə duran qida borusu xərçənginin ilk əlaməti qidanın udulmasında çəkilən çətinlikdir.

**O, siqaret çəkməklə yanaşı isti içki qəbul edənlərin daha çox risk qrupuna daxil olduğunu qeyd edib:**

"Bu, adətən gec bilinən, gizli gedən xəstəlikdir. İlkin ərəfələrdə qatı yeməklərdə baş verən çətin udqunma hissi xəstəlik irəlilədikcə sulu yeməklərdə də yaranır. Bir müddət sonra isə xəstə heç udquna bilmir, mədə ağrısı, arıqlamaq, sinə hissəsində yanma hiss və ağrı, səsinin getməsi, qanama, öskürək, boğulma kimi əlamətlər üzə çıxır. Həm siqaret, həm isti içki, hərəsi təklikdə həyat üçün riskdir. İkisinin birlikdə istifadəsi isə bu riski iki dəfə çoxaldır", - deyə hepatoloq vurğulayıb.

"Orqanizmdə A, B, C, E vitaminləri, maqnezium, sink, selenium olmaması xəstəliyin başlıca yaranma səbəblərindəndir. Meyvə və tərəvəzlərdən kifayət qədər istifadə edilmədikdə də bu risk payı artır".







# Musa - Sarah sevgisi

## Türk oğlanla evlənən 13 yaşlı ingilis qız bir uşağı ilə vətəninə qaytarıldı






Məlahət Rzayeva

**1990-cı illərin sonlarına doğru onların adı hər kəsin dilindəydi. Hamı bu sevgi macərasının necə bitəcəyi ilə maraqlanırdı. Kahramanmaraşlı Musa və ingilis qızı Sarah. "Şərq" "Milliyet.com"a istinadən 13 yaşındaykən dini kəbinlə türk oğlanla evlənən ingilis qızın hekayəsini oxuculara çatdırır.**

Bu sevgi 1997-ci ildə Sarah ailəsiylə birlikdə İngiltərədən Türkiyəyə - Alanyaya tətilə gəlib. Burada taleyin hökmü ilə Musa adlı gənclə tanış olur. Aralarında sevgi yaranır. Musa yeniyetmə gəncdir o vaxtlar. Aşiq olmaq, vurulmaq hər yeniyetmənin başına gələn işdir, amma Musanın da, Sarahın da taleyi fərqli imiş. Sarah və Musa qısa zaman arasında evlənmək qərarına gəlir. Bu vəziyyət əlbəttə hər kəsi diqqətini çəkir. 13 yaşlı qızın evlənməsi xəbəri İngiltərə hökumətinədək gedib çıxır. Amma onlara mane ola bilmirlər. Musa və Sarah evlənirlər. Sarah Kahramanmaraşda Musanın ailəsiylə birlikdə yaşayır, ev qadını olur. Lakin Sarahın 13 yaşında, yetkinlik yaşına çatmamış olması vəziyyəti qəlizləşdirir. Eşq, sevgi xoşdur, amma qanun da qanundur. İngiltərə hökuməti Musanın cəzalanmasını istəyir. Və yetkinlik yaşına çatmayanla münasibətdə olmaq əməlinə görə Musaya cinayət işi açılır. Musa həbsxanaya göndərilir, 28 gün həbsdə yatır. Sarah isə artıq ana idi. Oğlu dünyaya gəlmişdi. Qızın ailəsi bunu da nəzərə almır. Ailəsinin israrıyla Sarah İngiltərəyə dönür. Oğlu Məhəmmədi də özüylə aparır. Türkiyə ilə əlaqələri də kəsilir. Musa ilə aralarında soyuqluq yaranır. Bir neçə ildən sonra Sarah Musadan ayrılmaq qərarına gəlir. İllər keçir və hər ikisi də yenidən, başqasıyla evlənirlər. Amma övladları Məhəmmədə görə bir-biriylə telefonla əlaqə saxlayırmışlar. Sarah Musadan sonra 2 dəfə evlənib. Məhəmmədlə birlikdə, hazırda 4 övladı olub. Musa isə bir gün oğlu Məhəmmədlə görüşmək xəyalı ilə yaşayır. Musa oğlunu yalnız internet vasitəsilə görüb. Məhəmməd türkcə bilmir və yalnız "ata, mən səni sevirəm", kəlmələrini öyrənibmiş. Sarah xoşbəxt sayılmasa da, Musa həyatını qura bilib. Kahramanmaraşda mağazası var, ailəsi, övladlarıyla rahat həyat sürür. Musanın Sarahdan olan oğlu Məhəmməd hazırda 23 yaşındadır. Kahramanmaraşda qalsaydı, görəsən həyatı necə olacaqdı? Kim bilir    Uşaqlıq sevgisinin kədərli hekayəsidir bu. Bəlkə də ailəsi Sarahı İngiltərəyə zorla apartmasaydı, onların həyatı tamam fərqli olacaqdı və hər ikisi də xoşbəxt olacaqdı.

## Çiçək kimi açıb, bağlanan ev



**Gündüzlər çiçək açıb, gecələr bağlanan miniatür ev Avstraliyada Sidney şəhəri yaxınlığında tikilib.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, burada yaşayış üçün bütün şərait var. İki qüllədən ibarət evin divarları xüsusi mexanizm vasitəsilə qaldırılır.**

**Bütün divarlar xüsusi materialdan - büzməli misdən hazırlanıb. Çiçək ev şəhərin səs-küyündən uzaq olmaq, təbiətin qoynunda dincəlmək istəyənlər üçün ideal bir guşədir.**

## Alina Boz nişanlısından ayrıldı



**Aktirisa Alina Boz özündən 16 yaş böyük olan nişanlısı Mithat Can Özerdən ayrılıb.**

**Axşam.az xəbər verir ki, uzun müddətdir birlikdə olan cütlüyün bu addımı atmasına səbəb qısqanclıq olub.**

**Qeyd edək ki, Mithat müğənni Sezen Aksunun oğludur. Cütlük 3 ildir münasibətdə idi.**

**Alina yaxın zamanda yayımlanması planlaşdırılan "Süslü korkuluk" adlı serialda aktyor Çağatay Ulusoyun tərəf müqabili kimi izləyicilərin qarşısına çıxacaq.**

## Dəhşətli anlar yaşandı

### 5-çi mərtəbədən düşdü, indi həyat mücadiləsi verir



**Antaliyada 5-çi mərtəbədə balkona çıxan Y. E. (36), anası ilə nənəsi tutmağa çalışsa da yerə düşərək yaralanıb. Ombası və ayaqları sınan Y.E.ın, həyati təhlükəsi qalır.**

**"Şərq" türk mediasına istinadən xəbər verir ki, hadisə Gənclik məhəlləsi, 1315 küçəsindəki binanın 5-çi mərtəbəsində baş verib. Psixoloji problemləri olduğu ifadə edilən Y. E., balkonuna çıxıb. Bu zaman balkona gələn anası H. E. ilə nənəsi, Y.E.ı tutmağa çalışıb, ancaq alınmayıb. Y. E., alt mərtəbədəki balkonun dəmirinə çırpılaraq yerə düşüb. Təcili yardım ilkin müdaxilədən sonra Y.E.ı xəstəxanaya aparıb. Omba və ayaqları sınan Y.E.nin həyatı təhlükədədir.**

**Turan**



# Maral ovçunu qanına bələdi

## Sosial şəbəkə istifadəçiləri ov həvəskarlarını qınayaraq marala təriflər yağdırıblar

**Polşalı ovçu Leszek Kaminski ovlamaq istərkən özü "ovlanıb". Kaminski bu barədə sosial şəbəkə üzərindən paylaşım edib, ov zamanı çəkilən videonu da yayıb.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, hadisə Polşanın cənub-şərqindəki Chelm əyaləti yaxınlığındakı meşədə baş verib. Ovçu dəstəsi ilə ova çıxan Kaminski pusquda dayandığı zaman kolların arasından gözlənilmədən üzərinə şığıyan canlını tanımaqda belə zorlanıb. Ovçu nə baş verdiyini anlamayıb. Heyvan onun üzərinə hücum çəkib. Kaminski dəhşət içində başının üzərindəkinin iri buynuzlu bir maral olduğunu fərq edib. Ovçu tüfənginə əl atmağa macal tapmamış maral ona buynuzları ilə bir neçə zərbə endirib. Maralın hücumlarından qorunmaq üçün Kaminski yerə uzanıb. Videoda Kaminskinin silahı əlindən düşmüş halda geri çəkildiyi aydın görünür. Ovçu dostları Kaminskinin səsinə gəlib. Onu sifəti, başı bir neçə yerdən yaralı, göz qapağının qan içində olduğunu görüblər. Tüfəng də qana bulanıb. Xəstəxanaya aparılan Kaminski əməliyyat olunub. Ovçuların istifadə etdiyi internet səhifəsində paylaşım edən başqa bir ovçu isə "Kaminskini kənara atdığı bir addım xilas edib. Yoxsa maralın buynuzları sinəsini parçalayacaqdı", yazıb. Və bunları əlavə edib: Böyük, ya kiçik, fərq etməz, təhlükə hiss etdiyi anda istənilən canlının hücuma keçəcəyini heç vaxt unutmayın. Göründüyü kimi, bu, bir maral da ola bilir". Sosial şəbəkə istifadəçiləri ov həvəskarlarını da qınayaraq marala təriflər yağdırıblar.

**Məlahət**

## İlon Mask yenə təəccübləndirdi

### "İnsanlar başqa planetlərə köçməlidir"



**Texnologiya sahəsində dünyanın ən diqqətçəkən adlarından biri,**

Tesla-nın baş direktoru İlon Mask "kütləvi yox olma" ilə bağlı təəccüblü açıqlamalar verib.

"Şərq" xəbər verir ki, tez-tez açıqlamaları ilə gündəmdə olan Mask bir daha bomba effekti yaradacaq ifadələr işlədib.

Mümkün bir kütləvi yoxa çıxmada bəşəriyyətin sağ qalmayacağını bildirən Mask, "Bəşəriyyətin yüz faizi kütləvi şəkildə yox olacaq. İnsanların Yer kürəsində qalmaqla kütləvi yox olmaqdan canını qurtarmaq imkanı yoxdur" söyləyib.

Mask daha sonra insanlara kütləvi yox olmaqdan xilas olmaq üçün yeganə çıxış yolunu göstərib:

"İnsanlar kütləvi yox olmaqdan xilas olmaq istəyirlərsə, başqa planetlərə köçməlidirlər".

**Aygün Tahir**

## Ölkə ondan danışır

### Oksigen maskasını uşaqlara verən yanğınsöndürən infarkt keçirdi



**Türkiyənin Ərzurum şəhərində əfqan ailəsinin yaşadığı mənzildə yanğını söndürməyə gedən briqadanın üzvü Yücel Küçük öz hərəkətiylə seçilib.**

Ölkə indi ondan danışır. Yanğınsöndürənlər alovlara bürünmüş mənzilə pəncərəni sındıraraq daxil olub. Mənzildə 34 yaşlı Ruqəyya Ələvi və 17, 16 və 14 yaşlı qızları - Zəhra, Zöhrə, Zeynəb olub. Yanğınsöndürənlərdən biri - Yücel Küçük qızların tüstüdən boğulmaq üzrə olduğunu görüb və həyatını təhlükəyə ataraq oksigen maskasını çıxararaq növbə ilə uşaqlara taxıb. Ailə üzvləri alovlar içində olan mənzildən çıxarılıb. R.Ələvi hadisə yerinə gəlmiş təcili yardım maşınıyla xəstəxanaya aparılıb. Lakin qızlar növbəti təcili yardım maşınını gözləməli olublar. Oksigen maskasız qalan və boğulma təhlükəsi yaşayan Yücel Küçük isə tüstünün təsirindən infarkt keçirib. Onu da xidmət yoldaşları təcili yardımla xəstəxanaya çatdırıb. Y.Küçüyün vəziyyəti ağırlaşdığından reanimasiya şöbəsinə yerləşdirilib. Ana və qızların da həyati təhlükəsinin davam etdiyi bildirilir. Yanğının mənzildəki sobadan qaynaqlandığı deyilir. Yanğın səbəbiylə mənzilə zərər dəydiyi də müəyyənləşib.

**Məlahət**

## Dünyanın 10 ən zəngin adamının sərvəti...

### COVID-19 pandemiyası zamanı iki dəfə artıb



**Dünyanın 10 ən zəngin adamı COVID-19 pandemiyası zamanı sərvətlərini ikiqat artırarkən bəşəriyyətin 99 faizinin gəliri azalıb.**

Azərtac "Euronews"a istinadla xəbər verir ki, qlobal yoxsulluğun azaldılmasına diqqət yetirən xeyriyyə təşkilatı "Oxfam" Davosda keçirilən Dünya İqtisadi Forumu ərəfəsində qeyri-bərabərliyə dair hesabatını açıqlayıb.

"Oxfam"a görə, pandemiyanın başladığı 2020-ci ilin martından bəri dünyanın 10 ən varlı adamının, o cümlədən Elon Mask, Ceff Bezos və Bill Qeytsin sərvəti iki dəfədən çox artaraq 1,5 trilyon dollara çatıb. Bu göstərici onları dünyanın ən yoxsul 3,1 milyard insanından altı dəfə zəngin edir.

Koronavirus pandemiyasının milyarderlərin xeyrinə olduğunu bildirən "Oxfam"ın icraçı direktoru Qabriela Buçer səhmlərinin artması sayəsində super zənginlərin sayının artdığını da vurğulayıb.